Konstitusiya və Dirçəliş gününüz mübarək!

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

№ 45 (940)
11 - 17 noyabr
2016-cı il

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

Noyabrın 7-də Serbiyada Azərbaycan və Serbiya hökumətləri arasında 2012-ci ildə imzalanmış Kredit Sazişinə uyğun olaraq tikilmiş avtomobil magistralının Lyiq-Preljina hissəsinin açılışı olub. Tədbirdə Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib.

Azərbaycan-Serbiya əlaqələri strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanır

Layihənin reallaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən Serbiyaya 300 milyon avro kredit ayrılıb. Ümumi uzunluğu 40,3 kilometr olan yol 66 körpü və 4 tuneldən ibarətdir. Layihənin baş podratçısı Azərbaycanın "AzVirt" şirkətidir.

Yolun girişində Azərbaycan-Serbiya dostluğunu və iqtisadi əməkdaşlığını əks etdirən "Dostluq olan yerdə uzaq ölkə yoxdur. Bu yol xalqlarımızı birləşdirən yoldur. Serbiya-Azərbaycan dostluğu sarsılmazdır" sözlərinin yer aldığı lövhə yerləşdirilib.

Açılış mərasimində çıxış edən nazir Şahin Mustafayev Azərbaycan-Serbiya əlaqələrinin strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını qeyd edib. Bildirilib ki, dövlət başçılarının qarşılıqlı səfərləri və bu səfərlər zamanı aparılmış məhsuldar danışıqlar və imzalanmış sənədlər ölkələrimiz arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikasının Prezidenti Serbiya ilə əməkdaşlığa böyük önəm verir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir, xüsusilə ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birinin mövqeyini dəstəkləyir.

Vurğulanıb ki, Azərbaycan-Serbiya əlaqələrinin inkişafında Hökumətlərarası Komissiyanın fəaliyyəti də əhəmiyyətlidir. İndiyədək komissiyanın 4 iclası keçirilib və bu iclaslar çərçivəsində əldə edilən razılıqlar iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, sənaye, nəqliyyat, energetika, kənd təsərrüfatı, rabitə və informasiya texnologiyaları, ətraf mühit və s. sahələrdə əməkdaşlığın inkişafına əhəmiyyətli töhfə verir.

Nazir Şahin Mustafayev ötən müddətdə ticarət, investisiya sahələrində əhəmiyyətli işlərin görüldüyünü, biznes forum və s. tədbirlərin keçirildiyini, Belqradda Serbiya-Azərbaycan Ticarət-İqtisadi Palatasının fəaliyyətə başladığını qeyd edib. Bildirilib ki, Azərbaycan və Serbiya ticarət əlaqələrinin inkişafı üçün birgə müəssisələr yaratmaqla yeni bazarlara çıxa və işgüzar əməkdaşlığı genişləndirə bilər. Bundan başqa, Azərbaycan şirkətləri Serbiyada həyata keçirilən özəlləşdirmə prosesində, dövlət-özəl tərəfdaşlığı əsasında infrastruktur layihələrinin icrasında iştirak edə bilərlər.

Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında humanitar sahədə də önəmli layihələr həyata keçirilib. Azərbaycan Mədəniyyət Mərkəzi zəngin və qədim tarixə malik olan Azərbaycan və Serbiya xalqları arasında körpü rolunu oynayır və humanitar sahədə əməkdaşlığımıza öz töhfəsini verir. Azərbaycan hökumətinin və Heydər Əliyev Fondunun dəstəyi ilə Serbiyada bir sıra sosial obyektlərin - Belqradda "Taşmaydan" parkının, "Bayraqlı cami" məscidinin, Novi Sad şəhərində "Müqəddəs Petki" kilsəsinin, Novi Pazarda Mədəniyyət Mərkəzinin təmir-tikinti işləri həyata keçirilib. Bundan başqa, Novi Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin memorialı yaradılıb, Belqradın küçələrindən birinə Azərbaycanın Xalq Şairi Bəxtiyar Vahabzadənin adı verilib.

Nazir Şahin Mustafayev qeyd edib ki, açılışı olan "11-ci dəhliz" avtomagistralının Lyiq-Preljina hissəsi Azərbaycan-Serbiya əməkdaşlığının gözəl nümunələrindəndir və yeni layihələr üçün stimuldur.

Serbiyanın Baş naziri Aleksandr Vuçiç, Baş nazirin birinci müavini, tikinti, nəqliyyat və infrastruktur naziri Zoran Mixayloviç çıxışlarında layihənin Serbiya-Azərbaycan əlaqələrinin inkişafında əhəmiyyətini vurğulayıblar. Onlar ölkələrimiz arasında əməkdaşlığın inkişafına və bu gün açılışı olan avtomagistralın tikintisinə göstərdiyi dəstəyə görə Azərbaycan Prezidentinə təşəkkür ediblər.

PAŞA Bank

Azərbaycan xalqını
Konstitusiya günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq və
işıqlı günlər arzulayırıq!

Bayramınız mübarək!

Azərbaycan ilə İran arasında ticarət əlaqələrinin genişləndirilməsinə töhfə

Noyabrın 10-da Bakıda "Azərbaycanda və İranda investisiya imkanları" mövzusunda konfrans keçirilib.

Azərbaycan və İran arasında mövcud iqtisadi əlaqələr barədə məlumat verən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri (AZPROMO) Rüfət Məmmədov iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu diqqətə çatdırıb. R.Məmmədov qeyd edib ki, bu, investisiya sahəsində bizim ilk tədbirimizdir. Azərbaycan-İran arasında səmimi dostluq münasibətləri var ki, bu da hər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar açır.

"Azərbaycanda İran investisiyalı 450-yə yaxın şirkət fəaliyyət göstərir. Ticarət əlaqələrimiz bu il daha da genişlənib. İranın investisiya şirkətləri indiyədək Azərbaycana 1,2 milyard dollar sərmayə yatırıb. Bunun 145 milyonu qeyri-neft sektoruna yönəldilib", - deyə R.Məmmədov diqqətə çatdırıb.

İranın İnvestisiya, İqtisadi və Texniki Yardım Təşkilatının (OIETAI) Xarici İnvestisiyalar Departamentinin direktor müavini Əkbər Qəhrəmani bu tədbirin ölkələrimiz arasında əməkdaşlığın inkişafına, ticarət əlaqələrinin genişləndirilməsinə töhfə verəcəyini bildirib.



Bakıda Azərbaycan-İran əczaçılıq zavodunun təməli qoyulacaq

İki həftə sonra Bakıda Azərbaycan-İran əczaçılıq zavodunun təməlqoyma mərasimi keçiriləcək. Bu barədə jurnalistlərə İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə bildirib. Səfir, eyni zamanda, yaxın zamanlarda müştərək xəstəxananın tikintisinə başlanılacağını da deyib.

Biznesdə keyfiyyət idarəetmə sistemi mövzusunda təlim keçirildi

7 noyabr 2016-cı il tarixində tələbələr üçün biznesdə keyfiyyət idarəetmə sistemi mövzusunda təlim keçirildi. Təlim "AtaHolding"in Keyfiyyət şöbəsinin rəisi Elməddin Hüseynov tərəfindən aparıldı. Təlimdə Azərbaycanın müxtəlif ali məktəblərində təhsil alan tələbələr iştirak etdilər. Keyfiyyət şöbəsinin rəisi Elməddin Hüseynov bildirdi ki, azad bazar iqtisadiyyatında rəqabət mühitində dayanıqlı fəaliyyətin təmin edilməsi üçün müəssisələrdə keyfiyyət idarəetmə sisteminin qurulmasına böyük ehtiyac vardır. Fəaliyyət sahələrinə uyğun olaraq əməyin mühafizəsi, informasiya təhlükəsizliyi, ətraf mühit, qida təhlükəsizliyi və digər idarəetmə sistemlərini tənzimləyən beynəlxalq standartlar mövcuddur. Lakin bütün idarəetmə sistemlərinin bazasını keyfiyyət idarəetmə sistemi təşkil edir. Bu sistem İSO 9001 beynəlxalq standartın tələblərinə əsaslanır.

Təlimdə tələbələrə Keyfiyyət menecment sisteminin səmərəsi və tətbiq mərhələləri, müəssisə fəaliyyətində maraqlı tərəflər və onların maraq dairələri, hədəf planlaması, menecmentə sistemli yanaşma, biznes proseslərin əhəmiyyəti və tərtibi metodları barədə məlumat verilmiş, praktiki qrup çalışması aparılmışdır.

Tədbirdə "Excelsior Hotel & Spa Baku" otelinin keyfiyyət idarəetmə sistemi üzrə nümayəndəsi Kamran Rzayev və "AtaSığorta" ASC-nin keyfiyyət idarəetmə sistemi üzrə nümayəndəsi Xədicə Nəsirova iştirak etdilər və tələbələri otel və sığorta sahələrində keyfiyyət idarəetmə sistemi ilə bağlı maraqlandıran sualları cavablandırdılar.

PAŞA Bank "Fərdi Bankçılıq" xidmətlərinə başlamasının səbəbini açıqlayıb

Noyabr ayının 1-də Bakıda Azərbaycanın ən iri banklarından biri olan PAŞA Bankın "Fərdi Bankçılıq" Biznes-mərkəzinin açılış mərasimi baş tutmuşdur.

Yeni Biznes-mərkəz Bankın korporativ müştərilərinin PAŞA Bank əməkhaqqı kartlarının sahibi olan işçilərinə xidmət göstərilməsinə istiqamətlənib. Biznes-mərkəz geniş spektrdə maliyyə xidmətləri, o cümlədən hesabların açılması, kredit sifarişlərinin nəzərdən keçirilməsi, kassa əməliyyatları, plastik kartların təqdim olunması və digər xidmətləri təqdim edir.

Açılış mərasimində PAŞA Bankın İdarə heyətinin üzvü Şirin Əliyevanın qeyd etdiyi kimi, Bankın əməkhaqqı kartlarının sahiblərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi Bank üçün çox önəmlidir.

Ş.Əliyeva bildirib ki: "Son aylar ərzində korporativ müştərilərin sayının artması ilə bağlı olaraq, müştərilərimizə göstərilən xidmətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə əməkhaqqı kartlarının sahiblərinə xidmət edən ayrıca Biznes-mərkəzinin açılması zərurəti yaranmışdır. Korporativ müştərilərimizin işçiləri olan şəxslərə xidmət göstərilməsində rəqəmsal, o cümlədən internet-bankinq və mobil əlavə imkanlarının təbliği Biznes-mərkəzinin əsas məqsədlərindən biridir. Beləliklə, "digital" kanallar ilə göstərilən xidmətlərin aktiv tətbiqi bizə fərdi müştərilərin müraciətlərinin işlənməsi vaxtını azaltmağa və təqdim etdiyimiz xidmətin keyfiyyətinin daha da yüksəldilməsinə kömək edəcək".

"Fərdi Bankçılıq" filialı Bakı ş., Səbail rayonu, Yusif Məmmədəliyev küçəsi 12 ünvanında yerləşir və müştərilərinə iş günləri saat 9:00-dan saat 17:00-dək xidmət göstərir.

PAŞA Bankın gəlirləri 84% artıb

PAŞA Bank ASC 2016-cı ilin 9 ayını 12 milyon 654 min manat xalis mənfəət ilə başa vurub.

Yanvar-sentyabr aylarında Bankın cəmi gəlirləri 137 milyon 315 min manat, o cümlədən faiz gəlirləri 77 milyon 53 min manat, qeyri-faiz gəlirləri 60 milyon 262 min manat təşkil edib. Qeyri-faiz gəlirlərinin 43 milyon 346 min manatını məzənnə dəyişməsi daxil olmaqla, valyuta əməliyyatlarından xalis gəlir təşkil edib.

Ötən ilin analoji dövrü ilə müqayisədə PAŞA Bankın cəmi gəlirləri 84,5% artıb.

Hesabat dövründə PAŞA Bankın xalis əməliyyat mənfəəti 66 milyon 602 min manat təşkil edib. Xalis məməliyyat mənfəətinin 46 milyon 672 min manatı ehtiyatlara ayrılıb, 7 milyon 277 min manatı isə mənfəət vergisi olaraq ödənilib.

PAŞA Bank 2015-ci ilin yanvar-sentyabr ayında 74 milyon 442 min manat cəmi gəlir əldə etmiş, 7 milyon 602 min manat zərər açıqlamışdı.

AKTİVLƏRİ ARTIB

30 sentyabr 2016-cı il tarixinə PAŞA BAnkın cəmi aktivləri 2 milyard 782 milyon 552,88 min manat, öhdəlikləri 2 milyard 413 milyon 947,21 min manat cəmi kapitalı isə 368 milyon 605 min manat təşkil edib.

31 dekabr 2015-ci il tarixində, PAŞA Bank 2 milyard 136 milyon 163,69 manat cəmi aktivlərə, 1 milyard 776 milyon 125,54 min manat cəmi öhdəliklərə, 360 milyon 38.15 min manat cəmi kapitala malik idi. Bu ilin 9 ayında ötən ilin sonu ilə müqayisədə Bankın aktivləri 30,3% artıb.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

BU GÜN BALIQÇILIQ TƏSƏRRÜFATI UĞURLA İNKİŞAF EDİR

Xəzər dənizinin zəngin təbii sərvətləri həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına böyük şərait yaratmışdır. Əvvəllər yerli sahibkarlığın geniş inkişaf etmiş sahələrindən biri də balıqçılıq idi ki, əsasən, peşələrə görə bölünmüşdü: torçular, ovçular, avarçılar, təmirçilər, daşıyıcılar, duzlayıcılar və s. Həmin əmək bölgüsünün öz sahibləri və icraçıları var idi. Bütün vətəgələr mükəmməl texnika ilə təchiz edilmişdi və onlar bütövlükdə iri şirkətlərin, səhmdar cəmiyyətlərin nəzarəti altında birləşdirilmişdi.

Təsadüfi deyildir ki, Azərbaycanın daha iri sahibkarlıq fəaliyyətinə aid sindikat tipli 4 balıqçılıq firması dünya bazarına ixrac edilən və valyuta ilə satılan ağ balıq kürüsünün 45%-ni verirdi. Demək olar ki, dövlət xəzinəsinə ildə orta hesabla 2 milyon manatdan çox vəsait təkcə balıqçılıq sənayesindən daxil olurdu. Balıqçılıq sənayesinə aid məşhur şirkətlər Tağıyevə, Piralovlara, Zeynalovlara, Mailovlara və başqalarına məxsus idi. Azərbaycanın balıq sənayesi mənfəət baxımından neft və şərab istehsalından sonra 3-cü yeri tuturdu. Bir sözlə, balıqçılıq sahibkarlığın mənfəətli sahələrindəndir desək, heç də yanılmarıq, çünki balıq və balıq məhsullarına olan tələbat keçmişdən bəri əhalinin əsas qida növlərindən idi. Balqçılıq məhsullarının 75-80%-i əhalinin ətə olan tələbatının ödənilməsinə sərf edilir.

Bu gün də Azərbaycanın balıqçılıq təsərrüfatı uğurla inkişaf edir. Həmin inkişafda Caspian Fish şirkətinin də böyük payı var. Şirkət Azərbaycanda təkcə kürü və balıq məhsulları istehsalçısı və eksportyoru kimi deyil, həm də milli sərvətimizin qorunmasında önəmli rol oynayan şirkətlərdən biridir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət sayəsində Azərbaycan təkcə MDB ölkələri arasında deyil, bütün dünyada belə balıq və balıq məhsulları istehsal edən aparıcı ölkələrdən biridir. 2001-ci ilin fevral ayının 10-da yaranan Caspian Fish şirkəti də xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamışdır. Bu gün hazırladığı məhsulların yüksək keyfiyyətinə görə şirkət dünya şöhrəti qazanmışdır. Həm də Caspian Fish yüksək dünya standartlarına uyğun qurulmuş müəssisədir. Təsadüfi deyil ki, təkcə onun açılışı üçün müxtəlif tikinti materialları, avadanlıq və müasir texnologiyaların əldə edilməsinə 56 milyon dollar həcmində xarici investisiya cəlb edilmişdir. Caspian Fish şirkəti 96 çeşiddə balıq məhsulları, o cümlədən yüksək keyfiyyətli qara kürü istehsal edir. Qeyd edək ki, CITES və digər beynəlxalq təşkilatlar tərəfindən ciddi nəzarət altında olan kürü emalı və ixracı hüquqları Azərbaycanda yalnız Caspian Fish şirkətinə məxsusdur.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda balıq və kürü istehsalı sahəsində lider mövqeyini saxlayan, aparıcı kürü ixracatçısı olan Caspian Fish şirkəti əsasən 2 strateji istiqamətdə fəaliyyyət göstərir: kürü və çeşidli balıq məhsullarının istehsalı və respublikamızın ekoloji strategiyası ilə sıx bağlı olan balıqların yetişdirilib artırılması, balıq populyasiyalarının çoxaldılması. Hal-hazırda Caspian Fish müəssisəsinin istehsal gücünü gündə 300 ton xammalın emalı təşkil edir. Burada 750 nəfəri dənizdə olmaqla, 1000-ə yaxın işçi çalışır. İstehsalat kompleksi balıq və kürü emalı, balıq unu və balıq yağı sexlərindən ibarətdir. Bir neçə növ balıqdan 80 adda məhsul istehsal edən özəl müəssisədir. Güclü potensiala malik müəssisə nəinki mövcud bölgələri təmin etməyə, digər çoxsaylı xarici ölkələrin də, o cümlədən Avropa, ABŞ və başqa dövlətlərin bazarına çıxmağa imkan verir. Caspian Fish şirkətinin ekoloji mühit, flora və faunanın qorunmasına, Xəzərdə balıq ehtiyatlarının artırılmasına yönəltdiyi fəaliyyət istiqaməti, əsasən, Mingəçevir Balıqartırma zavodu sayəsində həyata keçirilir.

Bütün postsovet məkanında analoqu olmayan həmin zavod, eyni zamanda, daxili balıq ehtiyatlarımıza xələl gətirmədən yüksək istehsalat potensialına malik Caspian Fish müəssisələrini lazımi həcmdə xammalla təmin edəcək.

Müəssisə süni balıqartırma sahəsində ən müasir texnoloji avadanlıqa təchiz olunmuşdur ki, bu da müxtəlif yetişdirmə şəraitində nərə cinsli balıqların təmir-törədici reproduktiv sürülərinin yaradılması, onların cinsi yetkinlik mərhələsinə qədər yetişdirilməsi və gələcəkdə törədici kimi istifadə olunmasına imkan yaradır.

Qeyd edək ki, 3 il ərzində Caspian Fish tərəfindən aparılan təcrübə işləri burada balıqların artması üçün optimal şəraitin yaradılmasına imkan verdi. Şirkətin tətbiq etdiyi iş metodları köklü şəkildə digər bölgələrdə istifadə olunan metodlardan fərqlənir. Başqa ölkələrdə balıq körpələri yalnız süni hövzələrdə yetişdirilir. Belə şəraitdə təbii işığın və körpələrin qidalanması üçün canlı biomassanın olmaması gələcəkdə əldə ediləcək balıq kürüsünün keyfiyyətinə təsir göstərir. Mingəçevirdə yaradılan təbii şərait, o cümlədən uğurlu inkişaf üçün tələb olunan normal su dövranı, suyun təmizliyi və oksigenlə zəngin olması, bioloji yemin mövcudluğu və s. amillər kürünün yüksək keyfiyyət parametrlərinə zəmanət verir.

Qeyd etmək lazımdır ki, Dövlət Baytarlıq Nəzarəti müfəttişlərinin "Caspian Fish Co.Azerbaijan" MMC-də apardıqları audit yoxlamaları nəticəsində müəssisənin istehsalat fəaliyyətinə çox yüksək qiymət, eyni zamanda, Rusiya və Avropa ölkələrinə ixrac kodu verilmişdir.

Onu da qeyd edək ki, 2007-ci ildə Xorvatiya Prezidenti Stepan Mesiç, Tacikistan Prezidenti Emoməli Rəhmon və 2008-ci ildə İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ölkəmizə rəsmi səfərləri çərçivəsində "Caspian Fish Co. Azerbaijan" şirkətində olmuşdurlar. Onlar qida sənayesinin milli brendi olan Caspian Fish şirkətinin əhəmiyyətini xüsusi olaraq qeyd ediblər.

"Baku: into tomorrow's world" ("Bakı: sabahkı dünyada") verilişində Caspian Fish şirkətinin ətraf mühitin müdafiəsinə, ekoloji balansın saxlanılmasına və Xəzərin balıq sərvətlərinin artımına istiqamətlənmiş fəaliyyətindən danışılır.

Caspian Fish şirkəti 2011-ci ildə "UĞUR-2011" mükafatına layiq görülmüşdur. Bildiyiniz kimi, Consulting&Business jurnalı tərəfindən təsis olunmuş bu nüfuzlu mükafat biznes və iqtisadiyyat sahələrində önəmli nailiyyətlərə görə təqdim edilir. Həmin nüfuzlu mükafat Caspian Fish şirkətinə "Nərə cinsli balıqların qorunması və artırılması unikal layihəsinin icrasına görə" verilmişdir. Ölkəmizdə ekoloji balansın saxlanılması və Xəzərin balıq sərvətlərinin çoxaldılması Caspian Fish şirkətinin fəaliyyətinin ən mühüm istiqamətlərindəndir ki, əsasən, Mingəçevir Balıqartırma zavodu sayəsində inkişaf etdirilir. Öz missiyasını Xəzərdə balıq sərvətlərinin saxlanılması və artırılmasında görən Caspian Fish şirkətinin bu layihəsi dövlət miqyasında böyük əhəmiyyət kəsb edən ən önəmli layihələrdən biridir.

Beləliklə, ölkəmizin inkişafı üçün gəlir və şöhrət gətirən sahələrdən biri kimi Caspian Fish Co şirkəti də bu gün diqqət mərkəzindədir.

Nailə CABBAROVA

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmişdir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Bu onunla izah edilir ki, demoqrafiya sahəsindəki siyasət hər bir dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Düşünürük ki, bu sahədə dərin elmi tədqiqatları ilə tanınan Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, AMEA-nın müxbir üzvü, professor Şahbaz Muradovun "Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri" adlı məqaləsi oxucular üçün çox maraqlı olar.

Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri



Ş.M.Muradov
Əməkdar Elm Xadimi,
AMEA-nın müxbir üzvü,
i.e.d., prof.

(əvvəli ötən sayımızda)

Bunların nəticəsi olaraq hazırda Azərbaycan Respublikası əhalinin hər 10 min nəfərinə düşən həkimlərin, orta tibb işçilərinin və xəstəxana çarpayılarının sayına görə MDB ölkələri arasında 6-7-ci yerləri tutur. Belə ki, 2015-ci ilin əvvəlinə olan məlumatlara əsasən, əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı Rusiyada 49; Ukraynada 48; Ermənistanda 42; Belarus və Qazaxıstanda 39; Moldovada 36; Azərbaycanda 35 nəfər; orta tibb işçilərinin sayı Belarusda 130 nəfər; Rusiyada 106; Qazaxıstanda 99; Ukraynada 97; Moldovada 75; Azərbaycan və Ermənistanda 61 nəfər; xəstəxana çarpayılarının sayı Rusiyada 91; Ukraynada 88; Qazaxıstanda 63; Qırğızıstanda 48; Azərbaycan və Tacikistanda isə 47 vahid təşkil etmişdir. Belə vəziyyətin yaranmasına səbəb son illərdə ölkəmizdə səhiyyə sahəsində əldə edilmiş nailiyyətlərə baxmayaraq, hələ də əhalinin bütün ixtisaslardan olan yüksəkixtisaslı və peşəkar tibb kadrları; xəstəxana çarpayıları və ambulatoriya poliklinika yardımı göstərən müalicə müəssisələri ilə təmin olunması və sair sahələrdə mövcud olan çatışmazlıqlar; habelə ayrı-ayrı ixtisaslar üzrə tibbi kadrların hazırlanması və bölüşdürülməsini tənzimləyən mexanizmlərin laəzımi səviyyədə olmaması; tibb sahəsində çalışanların orta aylıq nominal əməkhaqlarının səviyyəsinin son dərəcə aşağı olması və sair səbəblərlə bağlıdır. Bütün bunların həlli isə səhiyyənin inkişafı, xüsusilə də tibbi kadrların hazırlanması, bölünməsi və istifadəsi sahəsində kompleks xarakter daşıyan Konsepsiyanın və Dövlət Proqramının işlənib hazırlanması və həyata keçirilməsini, habelə səhiyyə sisteəmində bazar münasibətlərinin tələblərindən irəli gələn köklü islaəhatların aparılmasını tələb edir.

Müstəqillik illərində, xüsusilə son 12 il ərzində ölkəmizdə əhalinin sağlamlığının yüksəldilməsi sahəsində qazanılmış uğurlardan biri də doğulanda əhalinin gözlənilən ömür uzunluğunun xeyli artırılmasından ibarətdir. Bunu ondan görmək olur ki, əgər 2005-ci ildə respublikamızda doğulanların gözlənilən ömür uzunluğu 72,4 yaş, o cümlədən kişilər arasında 69,6; qadınlar arasında 75,1 yaş təşkil etmişdirsə, onun səviyyəsi yüksələrək 2015-ci ilin əvvəlində cəmi əhali üzrə 74,2; o cümlədən kişilər arasında 71,6; qadınlar arasında isə 76,8 yaş təşkil etmişdir. Halbuki, bu göstəricilərin səviyyəsi Rusiya və Ukraynada 71; Belarusda 72; Qazaxıstan və Qırğızıstanda 70; Türkmənistanda 65; Tacikistanda 67; Özbəkistanda 68 yaşa bərabər olmuşdur. Nəzərə alsaq ki, BMT-nin ekspertlərinin təsnifatına görə, ölkənin bütün əhalisinin tərkibində 65 və yuxarı yaşda olan adamların xüsusi çəkisi 4 faizdən aşağı olduqda bu, gənc, 4-7 faiz təşkil etdikdə qocalıq ərəfəsində olan, 7 və yuxarı faiz təşkil etdikdə qocalmış əhali hesab edilir, onda hazırda bizim ölkənin əhalisinin ikincilərin sırasına daxil olduğu aydınlaşır. 2015-ci ilin əvvəlinə olan məlumatlara əsasən, ölkəmizdə yaşamış 9593,0 min nəfər əhalinin 2152,7 min nəfərini (22,4 faiz) 0-14 yaşında olanlar; 2564,5 min nəfərini (26,8 faiz) 15-29 yaşında olan gənclər; 570,7 min nəfərini (6,0 faiz) 65 və yuxarı yaşında olanlar təşkil etmişdir. Ölkəmizin əhalisinin 6616,4 min nəfəri və ya 69,0 faizi əmək qabiliyyətli yaşda olanlardır.

Bütün yuxarıda deyilənlərdən aydın olur ki, hazırda bütünlükdə ölkəmizdə, onun regionlarında, şəhər və kənd yerlərində müsbət demoqrafik vəziyyət formalaşmışdır. Bunu müstəqillik illərində ölkəmizdə, onun şəhər və kənd yerlərində cins tərkibi üzrə əhalinin dinamikası və quruluşunda baş vermiş dəyişikliklərdən daha aydın görmək olar *(cədvələ bax)*.

Cədvəldən də görünür ki, bütünlükdə götürüldükdə müstəqillik illərində, o cümlədən son 12 il ərzində (2003-2012-ci illərdə) respublikamızda əhalinin sayı sürətlə artıb çoxalmışdır. Belə ki, müstəqilliyimizin 25 ili ərzində respublikamızda əhalinin sayı 32,9 faiz artaraq 7218,5 min nəfərdən 9593,0 min nəfərə, o cümlədən kişilərin sayı 35,5 faiz artaraq 3524,1 min nəfərdən 4775,8 min nəfərə, qadınların sayı isə 30,4 faiz artaraq 3694,4 min nəfərdən 4817,2 min nəfərə; şəhər əhalisinin sayı 32,1 faiz artaraq 3858,3 min nəfərdən 5098,3 min nəfərə, kənd əhalisinin sayı isə 33,8 faiz artaraq 3360,2 min nəfərdən 4494,7 min nəfərə gəlib çatmışdır. Müqayisə edilən dövrdə əhali arasındakı kişi və qadınların xüsusi çəkisində isə elə bir ciddi dəyişiklik müşahidə olunmamış, kənd əhalisinin xüsusi çəkisi 0,4 faiz bənd artaraq 46,5 faizdən 46,9 faizə qalxmışdır. 2003-2015-ci illəri əhatə edən 12 il ərzində isə ölkə əhalisinin sayı 1323,8 min nəfər artmışdır ki, onların 717,8 min nəfərini və ya 54,2 faizini kişilər; 606,0 min nəfərini və ya 45,8 faizini isə qadınlar təşkil etmişlər. Bu illər ərzində ölkəmizdə əhalinin il ərzindəki ümumi artımı 45,0 faiz çoxalaraq 2003-cü ildəki 79,9 min nəfərdən 2014-cü ildə 115,9 min nəfərə, onun illik artımı isə 1,0 faizdən 1,2 faizə çatmışdır.

Respublika əhalisinin artımında baş vermiş yuxarıda göstərilən dəyişikliklər onun ayrı-ayrı iqtisadi rayonlarında, şəhər və kənd yerlərində də öz əksini tapmışdır (4-cü cədvələ bax). 4-cü cədvəlin məlumatlarından göründüyü kimi, həm 1990-2003-cü və həm də 2003-2015-ci illərdə respublikada və onun bütün iqtisadi rayonlarında, şəhər və kənd yerlərində əhalinin sayı xeyli artıb çoxalmışdır. Burada ilk olaraq diqqəti çəkən əsas cəhət ondan ibarətdir ki, 2003-2015-ci illərdə ölkə əhalisinin, o cümlədən şəhər əhalisinin sayı əvvəlki illərlə (1990-2003-cü illər) müqayisədə daha sürətlə çoxalmış və bu vəziyyət respublikanın əksər iqtisadi rayonları üçün xarakterik olmuşdur. Belə ki, əgər 1990-2003-cü illərdə ölkə əhalisinin sayı 115,0 faiz (ayrı-ayrı iqtisadi rayonlarda 101,2-124,2 faiz arasında dəyişməklə), o cümlədən şəhər yerlərində 108,0 faiz (ayrı-ayrı iqtisadi rayonlarda 101,2-122,0 faiz arasında dəyişməklə) artmışdırsa, 2003-2015-ci illərdə bu artım ölkə əhalisi üzrə 117,0 faiz (ayrı-ayrı iqtisadi rayonlarda 108,0-141,0 faiz arasında dəyişməklə), şəhər əhalisi üzrə 122,7 faiz (ayrı-ayrı iqtisadi rayonlarda 110,6-147,2 faiz arasında dəyişməklə) təşkil etmişdir. Abşeron iqtisadi rayonu istisna olmaqla qalan bütün iqtisadi rayonlarda kənd əhalisinin artım sürəti əvvəlki dövrlə müqayisədə xeyli aşağı olmuşdur. Burada onu da qeyd etmək lazımdır ki, 2003-2015-ci illərdə həm bütünlükdə ölkədə, həm də onun ayrı-ayrı ərazilərində əhalinin təkcə nisbi mənada artımı deyil, həm də mütləq mənada artımı 1990-2003-cü illərlə müqayisədə xeyli çox olmuşdur. Bunu ondan görmək olar ki, əgər 1990-2003-cü illərdə ölkə əhalisinin sayı 1070,6 min nəfər; o cümlədən şəhər əhalisinin sayı 307,0 min nəfər; kənd əhalisinin sayı 763,6 min nəfər artmışdırsa, 2003-2015-ci illərdə bu artım ölkə əhalisi üzrə 1390,5 min nəfər, o cümlədən şəhər əhalisi üzrə 944,0 min nəfər, kənd əhalisi üzrə isə 446,5 min nəfər təşkil etmişdir. Başqa sözlə desək, 2003-2015-ci illərdə 1990-2003-cü illərdə olduğuna nisbətən ölkə əhalisinin artımı 319,4 min nəfər və ya 29,9 faiz; o cümlədən şəhər əhalisinin artımı 637,0 min nəfər və ya 3,1 dəfə çox olmuş; kənd əhalisinin artımı isə 317,1 min nəfər və ya 41,5 faiz az olmuşdur. Halbuki, müqayisə edilən dövrdə kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğulanların və təbii artımın sayı həm ölkə üzrə və həm də şəhər yerlərində olduğuna nisbətən xeyli çox olmuşdur. Bunu ondan görmək olar ki, əgər 2003-cü ildə respublika əhalisinin hər 1000 nəfərinə düşən doğulanların sayı 14,0 nəfər; təbii artımın sayı 8,0 nəfər; şəhər yerlərində isə müvafiq surətdə 12,2 və 6,2 nəfər təşkil etmişdirsə, kənd yerlərində 15,9 və 9,8 nəfər olmuşdur. Eyni vəziyyət 2014-cü ildə də öz qüvvəsini saxlamışdır. Belə ki, həmin ildə əgər ölkə üzrə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 18,1 nəfər; təbii artımın sayı 12,2 nəfər, şəhər yerlərində isə müvafiq qaydada 16,3 və 10,3 nəfər təşkil etmişdirsə, kənd yerlərində 20,1 və 14,3 nəfər olmuşdur. Bu rəqəmlərin təhlilindən aydın olur ki, 2003-cü ildə respublikanın orta göstəriciləri ilə müqayisədə kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 13,6 faiz; təbii artımın sayı 22,5 faiz; şəhər yerlərində olduğuna nisbətənsə müvafiq surətdə 30,3 və 58,0 faiz yüksək olmuşdur. 2014-cü ildə də oxşar mənzərənin şahidi oluruq. Həmin ildə də ölkənin orta göstəricilərinə nisbətən kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 11,0 faiz; təbii artımın sayı 17,2 faiz; şəhər yerlərində olduğuna nisbətənsə müvafiq surətdə 23,3 və 38,8 faiz çox olmuşdur.

Burada onu da qeyd etmək lazımdır ki, son illərdə ölkəmizin bütün iqtisadi rayonlarının sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş tarazlayıcı iqtisadi siyasət nəticəsində respublikanın iqtisadi rayonlarının hamısında, onların şəhər və kənd yerlərində əhalinin artımında müsbət dəyişikliklər baş vermiş və dəyişikliklər indi də davam etməkdədir. 4-cü cədvəlin məlumatlarından göründüyü kimi, 2003-2015-ci illərdə ölkə əhalisinin ən sürətli artımı Abşeron (41,0 faiz); Bakı şəhəri (20,5 faiz); Naxçıvan MR (19,8 faiz) və Lənkəran; şəhər əhalisinin ən sürətli artımı Dağlıq Şirvan (47,2 faiz); Abşeron (41,9 faiz); Lənkəran (41,2 faiz); Kəlbəcər-Laçın (31,4 faiz); Naxçıvan (29,4 faiz) və Şəki-Zaqatala (29,2 faiz); kənd əhalisinin ən sürətli artımı isə Abşeron (42,3 faiz); Naxçıvan (16,3 faiz); Kəlbəcər-Laçın (14,4 faiz) və Aran (13,6 faiz) iqtisadi rayonlarında qeydə alınmışdır. Əhalinin artımındakı bu ərazi fərqlərini şəhər və kənd yerlərinə ayırmaqla nəzərdən keçirdikdə aydın olur ki, qeyd edilən dövrdə ölkənin kənd yerlərində əhalinin sayının şəhər yerlərinə nisbətən az artmasının əsl səbəbi, hər şeydən əvvəl, ölkədə urbanizasiya prosesinin güclənməsi; yeni şəhər və qəsəbələrin yaradılması, kənd əhalisinin bir qisminin müəyyən səbəblər üzündən şəhər yerlərində yaşamağa üstünlük vermələri və sair bu kimi başqa obyektiv və subyektiv amillərlə bağlıdır.

Ölkənin demoqrafik inkişaf vəziyyətini xarakterizə edən mühüm göstəricilərdən biri də onun əhalisinin cins-yaş quruluşunda baş verən dəyişikliklərdən ibarətdir. Rəsmi statistikanın məlumatlarına əsasən, 1991-2014-cü illərdə ölkəmizin əhalisinin sayı 32,9 faiz artaraq 7218,5 min nəfərdən 9543,0 min nəfərə, o cümlədən 2003-2014-cü illərdə 16,0 faiz artaraq 8269,2 min nəfərdən 9593,0 min nəfərə çatmasına rəğmən, müvafiq surətdə kişilərin sayı 35,5 faiz artaraq 3524,1 min nəfərdən 4775,8 min nəfərə və 17,7 faiz artaraq 4058,0 min nəfərdən 4775,8 min nəfərə; qadınların sayı isə müvafiq surətdə 30,4 faiz artaraq 3694,4 min nəfərdən 4817,2 min nəfərə və 14,4 faiz artaraq 4211,2 min nəfərdən 4817,2 min nəfərə çatmışdır. Bu rəqəmlərdən göründüyü kimi, müqayisə edilən hər iki müddət ərzində kişilərin sayı qadınların sayına nisbətən daha sürətlə artıb çoxalmış və əhalinin tərkibində onların xüsusi çəkisi azalaraq 1991-ci ildəki 51,2 faizdən 2003-cü ildə 50,9 faizə, 2014-cü ildə isə 50,2 faizə; hər 1000 kişiyə düşən qadınların sayı isə müvafiq surətdə 1048 nəfərdən 1038 nəfərə və 1009 nəfərə düşmüşdür.

Qeyd edilən dövrdə ölkə əhalisinin tərkibində qadınların xüsusi çəkisinin azalmasının əsas səbəblərindən biri həmin dövrdə diri doğulmuş uşaqlar arasında qız uşaqlarının xüsusi çəkisinin aşağı düşməsindən ibarətdir. Faktlara müraciət edək. Belə ki, əgər 1991-ci ildə respublikada diri doğulmuş 190,3 min nəfərin 92,5 min nəfəri və ya 48,6 faizi, müvafiq surətdə 1995-ci ildə 143,3 min nəfərin 68,2 min nəfəri və ya 47,6 faizi; 2000-ci ildə 117,0 min nəfərin 54,4 min nəfəri və ya 46,5 faizi; 2005-ci ildə 141,9 min nəfərin 65,7 min nəfəri və ya 46,3 faizi; 2014-cü ildə isə 170,5 min nəfərin 79,1 min nəfəri və ya 46,4 faizi qızların payına düşmüşdür.

Qeyd edilən dövrdə ölkəmizdə diri doğulmuş uşaqlar arasında qızların xüsusi çəkisinin azalması da səbəbsiz deyildir. Bunun əsl səbəblərindən biri son vaxtlarda dünyanın bir sıra ölkələrində, xüsusilə də müsəlman dövlətlərində olduğu kimi, respublikamızda da bəzi ailələr tərəfindən müəyyən texniki avadanlıqların köməkliyi ilə əvvəlcədən ana bətnində qız uşaqlarının mövcudluğu müəyyənləşdirilərək, süni surətdə onların dünyaya gəlmələrinin qarşısının alınması hallarının artmasıdır. Halbuki, uzun illərin və tarixi inkişafın sınağından keçmiş demoqrafik hadisə və proseslərdə baş vermiş qanunauyğunluqlar onu göstərir ki, bir qayda olaraq, diri doğulan hər 100 qız uşağına 105-106 nəfər oğlan uşağı doğulur və bütün dünyada hər 100 nəfər diri doğulan qız uşağına 105-106 nəfər oğlan uşağının doğulması normal hal hesab edilir. Lakin buna baxmayaraq, respublikamızda hər 100 nəfər diri doğulan qız uşağına düşən oğlanların sayı 1960-1990-cı illərdə 105,7-106,5 nəfər; 1995-2014-cü illərdə isə 110,1-115,6 nəfər, o cümlədən şəhər yerlərində 113,1-119,5 nəfər, kənd yerlərində isə 107,7-118,8 nəfər arasında tərəddüd etməklə dəyişmişdir.

(davamı gələn sayımızda)

Azərbaycan Respublikasında və onun iqtisadi rayonlarında, şəhər və kənd yerlərində əhalinin dinamikası (1990-2015-ci illərdə)

İqtisadi rayonlar	1990			2003			2015			1990-2015-ci illərdə %-lə			2003-2015-ci illərdə %-lə		
	Cəmi əhali (min nəfər)	O cümlədən		Cəmi əhali (min nəfər)	O cümlədən		Cəmi əhali (min nəfər)	O cümlədən		Cəmi əhali (min nəfər)	O cümlədən		Cəmi əhali (min nəfər)	O cümlədən	
		Şəhər yerlərində	Kənd yerlərində		Şəhər yerlərində	Kənd yerlərində		Şəhər yerlərində	Kənd yerlərində		Şəhər yerlərində	Kənd yerlərində		Şəhər yerlərində	Kənd yerlərində
Azərbaycan Respublikası	7131,9	3847,3	3284,6	8202,5	4151,3	4048,2	9593,0	5098,3	4494,7	115,0	108,0	123,2	117,0	122,7	111,0
Bakı şəhəri	1807,0	1807,0	-	1828,8	1828,8	-	2204,0	2204,0	-	101,2	101,2	-	120,5	120,5	-
Abşeron	338,2	313,0	25,2	391,4	360,7	20,7	551,8	508,1	43,7	115,7	106,6	121,8	141,0	141,9	142,3
Gəncə-Qazax	967,6	457,3	510,3	1108,6	562,1	606,5	1240,8	571,0	669,8	114,6	109,8	118,9	114,2	113,7	110,4
Şəki-Zaqatala	451,7	113,5	338,2	535,8	131,0	404,8	599,9	169,3	430,6	118,6	115,4	119,7	112,0	129,2	106,4
Aran	1383,9	529,6	854,3	1679,9	618,3	1061,6	1936,0	729,6	1206,4	121,4	116,8	124,3	115,2	118,0	113,6
Lənkəran	613,2	155,5	457,7	761,4	172,0	589,4	893,3	242,8	650,5	124,2	110,6	128,7	117,3	141,2	110,4
Quba-Xaçmaz	373,7	123,1	250,6	456,8	141,3	315,5	525,7	175,8	349,9	122,2	114,8	125,9	115,1	124,4	110,9
Yuxarı Qarabağ	513,3	166,1	347,2	605,2	192,2	413,0	653,5	212,5	441,0	117,9	115,7	119,0	108,0	110,6	106,8
Kəlbəcər-Laçın	169,4	34,5	134,9	207,3	40,1	167,2	244,0	52,7	191,3	122,4	116,2	124,0	117,7	131,4	114,4
Dağlıq Şirvan	212,6	58,0	154,6	260,2	70,7	189,5	304,0	104,1	199,4	122,4	122,0	122,6	116,8	147,2	105,5
Naxçıvan MR	300,5	88,9	211,6	367,1	99,1	268,0	439,8	128,2	311,6	122,2	109,2	126,6	119,8	129,4	116,3

Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu (1991-2015-ci illərdə)

İllər	Əhalinin sayı (min nəfər)	Onlardan		Bütün əhaliyə nisbətən qadınlar %-lə	Bütün əhalidən		Bütün əhali arasında %-lə	
		Kişilər	Qadınlar		Şəhər əhalisi (min nəfər)	Kənd əhalisi (min nəfər)	Şəhər əhalisi	Kənd əhalisi
1989	7021,2	3423,8	3597,4	51,2	3805,9	3215,3	54,2	45,8
1990	7131,9	3481,7	3650,2	51,2	3847,3	3284,6	53,9	46,1
1991	7218,5	3524,1	3694,4	51,2	3858,3	3360,2	53,5	46,5
1992	7324,1	3579,2	3744,9	51,1	3884,4	3939,7	53,0	47,0
1993	7440,0	3641,2	3798,8	51,1	3928,5	3511,5	52,8	47,2
1994	7549,6	3702,5	3847,1	51,0	3970,9	3578,7	52,6	47,4
1995	7643,5	3754,6	3888,9	50,9	4005,6	3637,9	52,4	47,6
1999	7953,4	3883,1	4070,3	51,1	4064,3	3889,1	51,1	48,9
2000	8032,8	3922,8	4110,0	51,2	4116,4	3916,4	51,1	48,9
2003*	8202,5	4023,0	4179,5	50,9	4154,3	4048,2	50,6	49,4
2005	8447,4	4156,2	4291,2	50,8	4423,4	4024,0	52,4	47,6
2009	8922,4	4414,4	4508,0	50,5	4739,1	4183,3	53,1	46,9
2010	8997,6	4455,5	4542,1	50,5	4774,9	4222,7	53,1	46,9
2015	9593,0	4775,8	4817,2	50,2	5098,3	4494,7	53,1	46,9
1991-2015-ci illərdə %-lə	132,9	139,5	130,4	- 1,0	132,1	133,8	- 0,4	+ 0,4
2003-2015	116,0	117,7	107,9	-0,7	120,3	111,5	+1,9	-1,9

"TechFall 2016 Hackathon" layihəsinin qalibi açıqlandı

"Azercell Telekom" MMC və "PAŞA Bank"ın dəstəyi, "Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi"nin və "WoWoman" platformasının təşkilatçılığı ilə gənc proqramçılar üçün təlim və yarış xarakterli "TechFall 2016 Hackathon" layihəsi başa çatıb. 5-6 noyabr tarixlərində keçirilən final mərhələsində komandalar püşkatma vasitəsilə mövzu seçib, həmin mövzu üzərində yatmadan 36 saat ərzində tətbiq hazırlayıblar. Təqdim olunan tətbiq ilk öncə texniki münsiflər heyəti tərəfindən qiymətləndirilib. 9 noyabr tarixində keçirilən təqdimat mərasimində isə komandaların tətbiqləri peşəkar münsiflər qarşısında təqdim edilib və qaliblər bəlli olub. Beləliklə "TechFall 2016 Hackathon" yarışmasında "Mango" layihəsi ilə "Hello-Hackathon" komandası qalib olub. II yeri "Hacksters", III yeri isə "Compilers" komandası qazanıb. "TechFall 2016 Hackathon" yarışmasında ilk yerin qalibinə Azercell və "PAŞA Bank"dan dəyərli hədiyyələr, 2-ci yerin sahiblərinə "Step IT" akademiyasından IT kurslarda 1 aylıq iştirak kuponu, 3-cü yerin sahibinə isə Barama İnnovasiya və Sahibkarlıq mərkəzi tərəfindən dəyərli hədiyyələr təqdim edilib.

Məlumat üçün bidirək ki, Hachathon proqramçıların birləşərək müxtəlif problemləri həll etdikləri, layihələr hazırladıqları və yarışdıqları tədbirlər silsiləsidir. "Hackathon"da proqramçılar müəyyən olunmuş vaxt ərzində proqramlaşdırma sahəsində öz məharətlərini göstərirlər.

"Hackhaton"lar mütəmadi olaraq dünyanın bir çox yerində, adətən "Google", "Netflix", "Facebook", "HP" və "Microsoft" kimi nəhəng şirkətlər tərəfindən həyata keçirilir.

Onu da bildirək ki, layihə çərçivəsində komandaların qida tələbatı Özsüt restoranlar şəbəkəsi tərəfindən ödənilib.Tədbirin Media dəstəyi isə technote.az tərəfindən təmin edilib.

İNNOVASİYA

İqtisadiyyatımızın innovasiya iqtisadiyyatına istiqamətləndiyi bir şəraitdə əhalinin innovasiya fəallığının yüksəldilməsi ən vacib problemlərdən biridir. Etiraf edək ki, xalq təsərrüfatının əksər sahələrində çalışan işçilərin innovasiya fəallığı aşağıdır.

İnnovasiya fəallığının yüksəldilməsi üzrə ölkəmizdə tədqiqatların aparılmamasını və milli dilimizdə yazılı materialların qıtlığını nəzərə alaraq professor Albert Tağıyevin bu yaxınlarda işıq üzü görmüş "İnnovasiya" kitabından (9-cu broşüra) silsilə məqalələri oxucuların nəzərinə çatdırırıq.

A.H.TAĞIYEV,
Sumqayıt Dövlət Universitetinin "Menecment" kafedrasının müdiri, professor

(əvvəli ötən saylarımızda)

"Toyota" korporasiyasının iş təcrübəsi

İstehsalın təşkilinin ən səmərəli metodlarından biri "Toyota" sistemidir. Mübaliğəsiz olaraq qeyd edə bilərik ki, "Toyota" sistemi istehsalın idarə edilməsinin yeni, inqilabi sistemidir.

"Toyota" sistemi istehsalın idarə edilməsinin təşkili metodlarından biridir, belə ki, bu sistem istehsal prosesinin lazım olmayan elementlərinin tam surətdə aradan çıxarılmasına imkan yaradır. Bu sistemin əsas vəzifəsi zəruri olan hissə və detalı lazım olan anda və kəmiyyətdə istehsal etməkdir.

Məhsul istehsalının kəsilməzliyi, məhsulun kəmiyyət və keyfiyyətinə, eləcə də çeşidlərinə olan dəyişkən tələbata istehsalın uyğunlaşması iki istehsal sisteminin köməyi ilə olur. Bunlardan birincisi, "dəqiq vaxtında" sistemidir, başqa sözlə desək, zəruri məhsulu lazım olan kəmiyyətdə və vaxtda istehsal etmək sistemidir. İkinci sistem isə "dzidoka" (avtomatlaşdırma), bilavasitə işçi yerlərində məhsulun keyfiyyətinə avtonom nəzarət sistemidir. "Toyota" sistemi məhz bu iki sütun üzərində qurulmuşdur. İşçi yerlərində məhsulun keyfiyyətinə avtonom nəzarət "dəqiq vaxtında" sisteminin kəsilməz işini təmin edir. Bu, ondan irəli gəlir ki, zay detalın növbəti əməliyyat mərhələsinə keçməsinin qarşısı alınır.

"Toyota" konsepsiyası işçi qüvvəsindən çevik istifadəni də nəzərə alır. Bu, o deməkdir ki, dəyişkən tələbatdan asılı olaraq məşğuliyyətli işçilərin sayı dəyişir, yaradıcılıq təfəkkürü və yenilik ideyası ilə məşğul olanların da sayı nəzərə alınır.

Bu ideyaların həyata keçirilməsi üçün "Toyota" sistemində aşağıdakı metodlar tətbiq edilir:

• "Dəqiq vaxtında" istehsal sisteminin fəaliyyətini təmin etmək üçün "kanban" sistemi tətbiq edilir;

• İstehsalın tələbatın dəyişməsinə uyğunlaşdırılması üçün məhsul istehsalının bərabərləşdirilməsi metodu tətbiq olunur;

• Ümumi istehsal vaxtının azaldılması məqsədi ilə avadanlıqların yenidən sazlanması vaxtının azaldılması yerinə yetirilir;

• İstehsal əməliyyatlarının balanslılığının təmin edilməsi məqsədi ilə işlərin normallaşdırılması həyata keçirilir;

• İstehsal avadanlıqlarının rasional yerləşdirilməsi və işçi qüvvəsinin çevik tətbiqi konsepsiyasının həyata keçirilməsi məqsədi ilə çox dəzgaha xidmət göstərən, universal hazırlanmış işçi qüvvəsindən istifadə edilir;

• Keyfiyyət dərnəklərinin fəalliyyətlərinin təkmilləşdirilməsi və səmərələşdirici təkliflərin mükafatlandırılması tətbiq edilir.

• İşçi yerlərində məhsulun keyfiyyətinə avtonom nəzarəti həyata keçirmək məqsədi ilə vizual nəzarət sisteminin tətbiqi aparılır;

• Bütün firmalarda məhsulun keyfiyyətinə nəzarət metodlarını yaymaq məqsədi ilə "funsional idarəetmə" sistemi tətbiq edilir.

İstehsalı zəruri olan detal və aqreqatların lazım olan kəmiyyətdə və vaxta istehsalı sitemi "dəqiq vaxtında" adlanır, bu, o deməkdir ki, məsələn avtomobil yığımı prosesində zəruri olan detal konveyerə zəruri vaxtda və zəruri miqdarda çatdırılmalıdır.

Əgər "dəqiq vaxtında" sistemi bütün firmalarda fəaliyyət göstərirsə, onda müəssisədə ehtiyat hissələrin saxlanılmasına ehtiyac qalmır. Nəticədə, müəssisədə ambar ehtiyatları və binaları tamamilə ləğv edilir.

Beləliklə, istehsal ehtiyatlarının saxlanılması xərcləri azalır, kapital dövriyyəsi isə sürətlənir.

İnsan amilinin fəallaşdırılması. "Toyota" sistemi istehsal həcminin operativ tənzimlənməsi, keyfiyyətin təmin edilməsi, insan amilinin fəallaşdırılması və eyni zamanda, istehsal xərclərinin azaldılması kimi məqsədlərin həyata keçirilməsinə imkan yaradır. İstehsalın səmərəliliyinin yüksəldilməsində hər bir işçi bilavasitə iştirak edir.

Hər bir fəhlənin imkanı olur ki, keyfiyyət dərnəyi adlanan kiçik işçi qrupunun yığıncağında istehsalın təşkili üzrə səmərəliləşdirmə və təkmilləşdirmə təklifləri versin və onun həyata keçirilməsində bilavasitə iştirak etsin.

Təkliflərin belə verilməsi prosesi istehsalın operativ idarə edilməsinin təkmilləşdirilməsinə imkan yaradır.

Buna texnoloji istehsal dövrünün davametmə müddəti dəyişərkən texnoloji əməliyyatların yerinə yetirilməsi ardıcıllıqların dəyişdirilməsi yolu ilə nail olunur.

Təkrar zay məhsul getməsinin, yaxud dəzgahın nasazlığının xəbərdarlığı vasitəsilə keyfiyyət təmin edilir.

İnsan amilinin fəallaşdırılması onların istehsal prosesinin idarə edilməsində yaradıcı surətdə iştirak etməsi yolu ilə həyata keçirilir.

Beləliklə, qabaqcıl firmaların idarəetmə təcrübəsinin öyrənilməsindən bu nəticəyə gəlmək olar ki, ümumiləşmiş şərtlər müəssisənin idarəetmə üzrə istehsaldaxili ehtiyatlarının səfərbərliyə alınmasını təmin edir. Bunlar aşağıdakılardır:

- istehsalın çevikliyinin təmin edilməsi;
- istehsal prosesinin modul əsasında təşkili;
- işçilər arasında ailə münasibətlərinin formalaşdırılması;
- müəssisədə innovasiya prossesinin sürətləndirilməsinə xüsusi diqqət yetirilməsi və s.

Bunlardan başqa, hər bir müəssisənin istehsal təsərrüfat fəaliyyətinin müəyyən istiqamətdə özünəməxsus bir üstünlüyü olmalıdır. Məsələn, tədqiq edilən firmalarda: "Toyota"nın üstünlüyü onun istehsalçılarının modul əsasında təşkili və çevikliyidir; İBM-in üstünlüyü onun satışından sonrakı xidməti yüksək səviyyədə təşkil etməsdir; "Sony"nin üstünlüyü innovasiya prosesinə xüsusi diqqət yetirməsi və işçilər arasında ailə münasibətlərinin yaradılmasındadır.

Belə hesab edirik ki, qeyd edilənlər müəssisələrdə nəzərə alınarsa, onda müəssisənin daxili ehtiyatlarının əksər hissəsi asanlıqla səfərbərliyə cəlb olunar.

(davamı var)

"PAŞA Həyat"ın "Təcrübəni bölüş" layihəsi çərçivəsində növbəti görüş keçirilib

Azərbaycanın ən iri sığorta şirkəti olan "PAŞA Həyat" "Təcrübəni bölüş" sosial layihəsi çərçivəsində Dövlət İqtisad Universitetində növbəti görüşünü təşkil edib.

Şirkətin ictimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, görüşdə "PAŞA Həyat"ın insan resursları departamentinin direktoru Tural Məmmədov və universitetin bir qrup tələbə heyəti iştirak edib.

"PAŞA Həyat"ın təşəbbüsü ilə Dövlət İqtisad Universitetində təşkil edilən görüşdə T.Məmmədov uğurlu iş adamı olaraq tələbələrlə öz karyera təcrübəsini bölüşərək onlara gələcək iş həyatında faydalı məsləhətlər verib.

Görüşdə T.Məmmədov tələbələrə "PAŞA Həyat"ın sosial layihələri ilə yanaşı, uğurlu karyera qurmağın yolları, işə qəbul prosesində rast gəlinən çətinliklər, uğur qazanmağın yolları, həmçinin bu sahənin vacibliyindən danışıb.

T.Məmmədov daha sonra rəhbərlik etdiyi departamentin işinin təşkili və işə qəbul prosesləri kimi məsələlərə də toxunub.

Görüşün sonunda Tural Məmmədov tərəfindən tələbələri maraqlandıran müxtəlif suallar ətraflı şəkildə cavablandırılıb və ən maraqlı sual verən tələbəyə "PAŞA Həyat"ın hədiyyəsi təqdim olunub

Qeyd edək ki, "PAŞA Həyat"ın "Təcrübəni bölüş" adlı layihəsi ölkədə fəaliyyət göstərən ali təhsil ocaqlarını əhatə edir. Layihənin məqsədi şirkətdə çalışan uğurlu iş adamlarının tələbələrlə öz karyera təcrübəsini bölüşərək onlara gələcək iş həyatında faydalı məsləhətlər verərək onların karyera imkanlarını daha düzgün istiqamətə yönəltməkdən ibarətdir.

Layihə çərçivəsində indiyədək 3 universitetdə görüş keçirilib. Görüşlərdə 150-dən çox tələbə bu layihənin iştirakçısı olub.

Azercell-dən ilkin ödənişsiz iPhone 7 ayda cəmi 89 manata

Bir neçə gün öncə ölkənin lider mobil operatoru Azercell Telekom iPhone 7 və iPhone 7 Plus smartfonlarının Azərbaycanda rəsmi təqdimatçısı kimi abunəçilərinə yeni cəlbedici təklifi barədə elan vermişdir.

Nəhayət, 4 noyabr tarixindən etibarən Azercell-in bütün müştəriləri güzəştli şərtlərlə iPhone 7 telefonuna sahib olmaq üçün ayda cəmi 89 AZN ödəməklə ən müasir smartfon və 30GB həcmində Hədsiz İnternet paketini əldə edə bilər.

Beləliklə, ən müasir smartfonu əldə etmək istəyən abunəçilər 4 noyabr tarixlərindən Azercell-in Z.Tağıyev 18, B.Bağırova 2, 28 May 33A ünvanlarında yerləşən Müştəri Xidmətləri Mərkəzlərinə yaxınlaşıb bu sərfəli təklifdən yararlana bilər. Onu da bildirək ki, telefonların sayı məhduddur.

Qeyd etmək lazımdır ki, iPhone 7 və iPhone 7 Plus mobil telefonları iPhone-nun ən yeni nəsil modelləri olub, yeni kamera sistemi, ən uzunömürlü batareya və suya/toza davamlılığı ilə seçilir.

Azercell şirkəti bundan sonra da abunəçilərini yeni sərfəli kampaniya və xidmətlərlə sevindirməkdə davam edəcək.

Kredit kartı istifadə edənlər sürətlə azalır

Banklarda kredit kartlarının sayı azalmaqda davam edir.

Təkcə sentyabr ayında kredit kartlarının sayı 20 min ədəd azalaraq avqustun sonundakı 728 min ədəddən 708 min ədədə geriləyib.

Bu ilin 9 ayı ərzində isə kredit kartlarının sayı 302 min ədəd azalıb. 2015-ci ilin yanvar ayında bankların kredit kartlarının sayı 1 milyon 322 min ədədə çatmışdı. Həmin vaxtan bəri kredit kartlarının sayı 1,9 dəfəyə yaxın azalıb.

Oktyabrın 1-nə cəmi ödəniş kartlarının sayı 5 milyon 174 min ədəd təşkil edib. Ödəniş kartlarının 2 milyon 284 min ədədini sosial kartlar, 1 milyon 537 min ədədini əməkhaqqı kartları, 645 ədədini isə digər debet kartları, 708 min ədədini kredit kartları təşkil edib.

Sentyabrda digər debet kartları 3 min ədəd azlıb, əməkhaqqı kartları 6 min ədəd, sosial kartlar 79 min ədəd artıb.

"Nikoil Bank"ın 92%-nə sahib oldu

"Nikoil Bank" QSC-nin əsas səhmdarı "Topaz İnvestments" bankın 90 mln. manat dəyərində olan səhmlərini alıb. Bankdan verilən məlumata görə, səhmlər cari ilin 25 oktyabr tarixində Bakı Fond Birjasında yerləşdirilib.

Bununla, "Topaz İnvestments"in "Nikoil Bank"dakı səhmləri 91,8440%-ə yüksəlib.

Buna müvafiq olaraq bankın digər səhmdarlarından olan "Nikoil" QSC-nin payı 7,58% azalaraq 7,97%, "ISR Holding" MMC-nin payı isə 0,18% azalaraq 0,19%-ə enib.

Xatırladaq ki, bankın nizamnamə kapitalının artırılmasının ikinci mərhələsi də başa çatıb. Bunun nəticəsi olaraq "Nikoil Bank" QSC-nin nizamnamə kapitalı 90 mln. manat artırılaraq 184 mln. 500 min manata yüksəlib. Qeyd edək ki, nizamnamə kapitalının artırılması qərarı 21 sentyabr 2016-cı il tarixində səhmdarların ümumi yığıncağında qəbul olunub.

"Uşaq Qaynar Xətt" xidməti "Maarifləndirmə kampaniyası" keçirir

Azercell Telekom MMC-nin dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti mütəmadi olaraq həyata keçirdiyi "Maarifləndirmə kampaniyası" çərçivəsində tədbirlərini davam etdirir. "Uşaq Qaynar Xətt" xidməti bu dəfə İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) təşəbbüsü ilə qeyd edilən "Uşaq Hüquqları" aylığı günü ilə əlaqədar Sabunçu rayonu, 252 nömrəli məktəbin 8-9-cu sinif şagirdləri, məktəb nümayəndələri və valideynlərin iştirakı ilə görüş təşkil edib. Tədbirdə Uşaq Qaynar Xətt xidmətinin fəaliyyəti və eləcə də "Zərərli vərdişlər", "Erkən Nigahın qarşısının alınması", uşaqların hüquqlarına dair mövzuların təqdimatı və valideynlərlə birgə müzakirəsi aparılıb. Tədbirdə, eyni zamanda, iştirakçılara "Uşaq Qaynar Xətt " xidmətinə məxsus məlumat xarakterli buklet, stikerlər paylanılıb və şagirdləri maraqlandıran suallara cavab verilib.

2010-cu ildə Azercell-in dəstəyi ilə Bakıda yaradılan "Uşaq Qaynar Xətt"-in əsas məqsədi uşaqlara ilkin psixoloji yardım, emosional dəstəyin, təxirəsalınmaz köməyin göstərilməsi, müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, habelə reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirməsidir. Fəaliyyət göstərdiyi bu illər ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə müxtəlif problemlərlə bağlı ölkənin bir çox şəhər və rayonlarından uşaqlar və gənclər, habelə valideynlər tərəfindən 15.000-ə yaxın müraciət daxil olub.

Azərbaycan "Uşaq Qaynar Xətt" xidmətindən daha çox dövlət uşaq müəssisələrində olan, küçədə yaşayan və işləyən, istismara və zorakılığa məruz qalan, psixoloji və emosional problemlərlə üzləşən, kobud rəftara məruz qalmış, fiziki və əqli cəhətdən əlilliyi olan, qaçqın və məcburi köçkün olan uşaqlar istifadə edirlər.

Yaradılan qaynar xəttin daha üstün bir cəhəti sözügedən xidmətə müraciət edən uşaqların anonimliyinin qorunmasıdır ki, bu da onların daha səmimi olmasına şərait yaradır. Digər tərəfdən, fasiləsiz olaraq 24 saat fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də Azercell nömrələrindən edilən zənglər ödənişsizdir. Uşaqlara Bakıda (012) 480 22 80; (051) 880 11 80 və (050) 680 22 80; (088) 480 22 80, Gəncədə isə (022) 256 20 40; (051) 880 22 80; (051) 580 22 80; (088) 256 20 40 nömrələri ilə günün istənilən saatında Qaynar Xətt Xidmətinə müraciət etmək imkanı yaradılıb.

Vergilər Nazirliyində kollegiya iclası keçirilib

Vergilər Nazirliyində Azərbaycan Respublikasının Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli Sərəncamında verilən tapşırıqların icrası istiqamətində görülən işlərə və qarşıda duran vəzifələrə həsr edilmiş Kollegiya iclası keçirilib.

İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi, vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində son illər ərzində mühüm addımlar atılıb, görülmüş tədbirlər nəticəsində büdcəyə vergi daxilolmaları üzrə müəyyən edilmiş proqnoz tapşırıqlarına artıqlaması ilə əməl olunub.

Dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində ölkədə yaranmış yeni iqtisadi şəraitdə iqtisadiyyatın neft gəlirlərindən asılılığını minimuma endirmək məqsədilə aparılan iqtisadi islahatlar

çərçivəsində cari ildə vergi orqanlarının fəaliyyəti təkmilləşdirilib, nazirliyin bütün strukturlarının fəaliyyətinin son nəticəyə - büdcə daxilolmalarının artırılmasına yönəldilməsi üçün bir sıra əhəmiyyətli tədbirlər görülməkdədir

Kollegiya iclasında sərəncamdan irəli gələn məsələlərlə bağlı görüləcək işlər, eləcə də icra intizamına nəzarətin və strukturlararası koordinasiyanın səmərəliyinin artırılması ətrafında geniş müzakirələr aparılıb.

İclasda yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov vurğulayıb ki, Nazirlik yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin aidiyyəti strukturları tərəfindən qanunsuz sahibkarlıq və mütəşəkkil qaydada vergidən yayınma halları ilə mübarizə qənaətbəxş səviyyədə deyil, operativ nəzarət strukturları isə bir sıra hallarda kiçik sahibkarlıq subyektləri barəsində aktlar tərtib etməklə işləri bitmiş hesab edirlər. Nazir qanunsuz sahibkarlıq, iri məbləğlərdə vergilərdən yayınma halları ilə mübarizə, işində nöqsanlara yol vermiş vergi xidməti əməkdaşları barəsində vergi orqanlarında xidmətinə xitam verilməsi də daxil olmaqla ciddi cəza tədbirlərinin görülməsi ilə bağlı konkret tapşırıqlar verib. Daxili təhlükəsizlik baş idarəsinə və Nazirliyin Aparatına icra intizamına nəzarətin və strukturlararası koordinasiyanın səmərəliyinin artırılması üçün təcili tədbirlər görülməsi tapşırılıb.

Kollegiyanın qərarı ilə vergi orqanları tərəfindən nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun olaraq daha da təkmilləşdirilməsi, büdcə gəlirləri üzrə proqnoz tapşırıqlarının tam həcmdə yerinə yetirilməsi məqsədilə Vergilər Nazirliyində bəzi struktur və kadr dəyişiklikləri aparılıb, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində bu məsələlərlə birbaşa məşğul olacaq müvafiq struktur bölmə - İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin tərkibində Qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsi yaradılıb.

2016-cı ilin yanvar-oktyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 707 milyon 128,0 min manat vəsait daxil olub

2016-cı ilin yanvar-oktyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 707 milyon 128,0 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,1 faiz əməl edilib. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 4 milyard 310 milyon 845,0 min manat vəsait daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 247 milyon 477,8 min manat çoxdur.

Cari ilin yanvar-oktyabr aylarında respublika üzrə 105 605 vergi ödəyicisi qeydiyyata alınıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

KİVDF

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq 19 istiqamət üzrə fərdi jurnalist yazıları müsabiqəsini elan edir.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbul qaydaları və tələb olunan sənədlər haqqında **www.kivdf.gov.az** saytından ətraflı məlumat almaq olar.

Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması:
Hər istiqamət üzrə 6 qalib müəyyən edilir.
I yer üçün bir nəfər (500 AZN)
II yer üçün iki nəfər (400 AZN)
III yer üçün üç nəfər (300 AZN) nəzərdə tutulmuşdur.
Yazılar 10 ballıq sistem üzrə qiymətləndirilir, maksimum 50 bal müəyyən olunur.

Noyabrın 10-da Vergilər Nazirliyi digər dövlət qurumlarının iştirakı ilə "Elektron cinayət işi" modulunun tətbiqi ilə bağlı təqdimat mərasimi keçirib.

"Elektron cinayət işi"nin təqdimatı keçirilib

Tədbir iştirakçılarını salamlayan vergilər nazirinin müavini, 3-cü dərəcəli vergi xidməti müşaviri Namiq Əliyev son illər vergi sistemində aparılan islahatlar barədə danışıb, ölkə Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust tarixli sərəncamı və bu sərəncam çərçivəsində görülən işlər barədə ətraflı məlumat verib. Bildirilib ki, Sərəncamdan irəli gələn tapşırıqların icrası çərçivəsində Vergilər Nazirliyində "Elektron cinayət işi"nin tətbiqi ilə bağlı aparılan hazırlıq işləri artıq başa çatıb.

Vergi sistemində son illərdə elektron sahədə aparılan islahatlarla bağlı filmin nümayişindən sonra Vergilər Nazirliyinin Vergi Cinayətlərinin təhlili və vergi borclarının alınması baş idarəsinin rəisi, vergi xidməti müşaviri Zeynalabdin Məmmədzadə təqdimatla çıxış edərək, vergi hüquqpozmalarına və cinayətkarlığa qarşı mübarizə sahəsində təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti (VCİAD) tərəfindən aparılan istintaq işlərinin sürətinin və keyfiyyətinin artırılması, vahid elektron statistik uçot bazasının yaradılması, əlavə inzibatçılıq tədbirlərinin minimuma endirilməsi, iş vaxtına qənaət edilməsi, insan resurslarından daha səmərəli istifadə olunması məqsədilə, bu sahədə tətbiq olunan uğurlu beynəlxalq təcrübə öyrənilərək, nazirliyin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) "Elektron cinayət işi" modulunun hazırlanıb istifadəyə verildiyini bildirib.

"Elektron cinayət işi" modulu barədə tədbir iştirakçılarına ətraflı izahat verən Z.Məmmədzadə bildirib ki, bu - ibtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə cinayət xarakterli faktları əks etdirən materialların Departamentə göndərilməsi, Departamentdə aparılan ibtidai araşdırma zamanı qərar, vəsatət, məktub və digər sənədlərin elektron formada hazırlanması məqsədilə yaradılmış, özündə daha geniş və dəqiq məlumatları əks etdirən, operativ axtarış imkanlarına malik olan cinayət işlərinin vahid elektron sistemidir.

Baş idarə rəisinin sözlərinə görə, "Elektron cinayət işi" modulunun tətbiqi ilə bağlı ibtidai araşdırma zamanı qəbul oluna biləcək prosessual qərar, vəsatət və onları müşayiət edən məktubların, nazirlik daxili məktubların (sorğuların), digər qurumlara göndəriləcək məktubların (sorğuların), ümumilikdə 100-dən artıq sənədin nümunəvi formaları hazırlanıb.

Modulun tətbiqinə 2016-cı ilin noyabr ayının 21-dən başlanılacağını deyən Z.Məmmədzadə, məsələ ilə bağlı VCİAD-ın müstəntiq və təhqiqatçıları üçün müvafiq treninqlərin keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Tədbirdə Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının, Nazirlər Kabinetinin, Baş Prokurorluğunun, Vergilər Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Vəkillər Kollegiyasının nümayəndələri, bir sıra məhkəmə orqanlarının hakimləri və KİV nümayəndələri iştirak ediblər.

"Azər-Türk Bank" 31 faizdən çox böyüdü

Azər Türk Bank
etibar etdiyiniz ünvan

31.10.2016-cı il tarixinə "Azər-Türk Bank" ASC-nin cəmi aktivləri 807 milyon 630 min 702 manat təşkil edib.

Bankın balans hesabatına istinadən xəbər verilir ki, ötən ilin sonu ilə müqayisədə Bankın aktivləri 207 milyon 47 min manat və ya 31,2% artıb. Bank 31 dekabr 2015-ci il tarixində 663 milyon 578 min manat, 31 dekabr 2014-cü il tarixində isə 288 milyon 238 milyon manat cəmi aktivlərə malik idi.

Oktyabrın sonuna "Azər-Türk Bank" ın cəmi öhdəlikləri 749 milyon 855 min 964 manat, cəmi kapitalı isə 57 milyon 774 min 738 manat təşkil edib.

GƏNC TƏDQİQATÇININ TRİBUNASI

SƏNAYE PARKLARI İQTİSADİYYATIN YENİ MÜSTƏVİSİNDƏ

Siyasi rejimlər iqtisadiyyata təsir etsə də, iqtisadi situasiyanın dəyişməsi siyasi dairələrdən təsirsiz ötüşmür və dünyanı yeni bir müstəviyə aparır. Siyasət və iqtisadiyyatın vəhdət şəklində inkişafı danılmazdır və bunların birində baş verən ani dəyişiklik dünyəvi problemə səbəb olur. Enerji bazarında qara qızılın qiymətinin azalması siyasi və iqtisadi dairələrə təsir edərək yeni bir situasiya meydana gətirib. Neft ixrac edən ölkələr öz gəlirlərinin bir qisimini itirərək, iqtisadi vəsaitlərin artırılmasının alternativ variantlarını axtarır, qara qızılı idxal edən ölkələr isə enerji təhlükəsizliyini özünün daxili alternativ enerji mənbələri hesabına təmin edərək neftdən asılılıqlarını azaldırlar. İqtisadi dairələr neft ölkələrinin gələcək vəziyyəti haqqında və dünya bazarına yeni enerji mənbələrinin çıxacağı ilə bağlı proqnozlar verir. İxracatçı ölkələr qeyri-neft sektorunun inkişafına dəstək verərək, büdcəyə daxil olan vəsaitlərdə neft sektorunun payının azaldılmasında maraqlı olacaqlar. Belə ki, təbii qaz və neft kimi sərvətlərə malik ölkələrin iqtisadiyyatlarında yaranan çətinliklər həmin ölkələrin iqtisadi durumunun dəyişməsinə səbəb olur. Bu isə dünyanın iqtisadi vəziyyətinin köklü dəyişməsinə gətirib çıxarır.

Neftin qiymətində baş verən dəyişmə Azərbaycan iqtisadiyyatından da yan keçməyib və büdcəni vəsaitlərin axınından qismən də olsa, məhrum edib. Ancaq ölkəmiz alternativ enerji mənbəyi kimi qazın istehsal potensialını artıraraq vəsaitlərinin axınını bərpa edir. TAP, TANAP kimi beynəlxalq layihələr reallaşır ki, bu da ölkəmizin qeyri-neft sektorunun inkişafına təkan verəcəkdir. Artıq neft sektorundan əldə olunmuş gəlirlər

qeyri-neft sektoruna yönəldilərək büdcənin bu sektordan təmin edilməsinə nail olunur.

Bəzi iqtisatçı ekspertlər qeyd edirlər ki, qaz istehsalını artırmağa ehtiyac yoxdur və əksinə neft istehsalını bir neçə faiz azaltmaq lazımdır. Bu yanaşmada həqiqət olsa da, müasir dünyanın iqtisadi-siyasi arenasında baş verən hadisələr və qeyri-neft sektorunun dirçəldilməsi istiqamətində həyata keçirilən layihələrin dəstəklənməsi baxımından enerji ixracının azaldılması məntiqə söykənmir. Ancaq qaz istehsalını artıraraq əldə olunan vəsaitləri qeyri-neft sektoruna yönəltməklə bu sektorda canfəşanlığa nail ola bilərik. Ölkəmiz tükənən enerji mənbələri ilə yanaşı, bərpaolunan enerji mənbələrinə də sahibdir və müvafiq dövlət proqramları reallaşdırmaqla, həmin enerji mənbələri hesabına daxili tələbatı ödəməklə dünya enerji bazarına çıxış əldə edə bilərik. Artıq respublika ərazisində külək, günəş kimi bərpaolunan enerji mənbələrindən enerji əldə edilir və daxili tələbata yönəldilir. Bu enerji mənbələri ilə yanaşı, çaylar üzərində tikilən su-elektrik stansiyaları bizə imkan verir ki, tükənən enerji mənbələrimizi dünya bazarına çıxararaq bu sahələrin inkişafında vəsait əldə edək. Hal-hazırda bu istiqamət üzrə əvəzolunmaz tədbirlər həyata keçirilir və müvafiq dövlət proqramları hazırlanır.

Azərbaycan neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək, daxili tələbatı yerli malların hesabına ödəmək, idxalatdan asılılığı azaltmaq, ixaracatı artırmaq və iqtisadiyyatda canlanma əldə etmək məqsədilə dünya təcrübəsinə əsaslanan Sənaye parklarının yaradılmasını həyata keçirir.

Qeyd edək ki, Azərbaycanda Sənaye parklarının yaradılmasına başlanılmasının ciddi əsasları var. Xarici ölkələrin təcrübəsinə istinad edərək deyə bilərik ki, Sənaye parkları sahibkarlığın dəstəklənməsinə, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılmasına, kənd təsərrüfatımızın, sənaye potensialımızın və şəhərlərimizin inkişafına çox böyük xeyir verəcək. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində Sənaye parklarının yaradılmasına, inkişafına yer verirlər. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya təcrübələri göstərir ki, Sənaye parklarının yaradılması əhalinin tələbatlarının yerində ödənilməsində, milli tekstil brendlərinin yaradılmasında, ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında mühüm əhəmiyyət kəsb edir. Böyük investisiya cəlb edən Sənaye parklarında görüləcək tədbirlər iqtisadi potensialı, kənd təsərrüfatını, sənaye müəssisələrini, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılmasını, sahibkarlar arasında kooperasiya əlaqələrinin möhkəmləndirilməsini gücləndirəcək və burada yaradılacaq müəssisələr ixracyönümlü olaraq idxalatdan asılılığı azaldacaq.

(davamı var)

Mahmud Sadıqov,
ADİU-nun magistrantı

Əmanətlərdə dollarlaşma yenidən artıb

Azərbaycanda əhalinin bank əmanətlərinin strukturuna görə, dollarlaşma dərəcəsi oktyabr ayının 1-nə 81,75% təşkil edib. Keçən ay bu göstərici 81,6% olub. İlin əvvəlində əmanətlərdə dollarlaşma 85%, keçən ilin analoji dövründə isə 75,7% təşkil edib.

Mərkəzi Bankın statistikasına görə, cəmi depozit bazasında oktyabrın 1-nə dollarlaşma dərəcəsi 78,64% olub. Keçən ay bu göstərici 81,04%, ilin əvvəlində 81,6%, 2015-ci ilin analoji dövründə isə 75,41% təşkil edib.

Kreditlərin strukturunda isə bu il oktyabrın 1-nə dollarlaşma dərəcəsi 47,29%, sentyabrın 1-nə 48%, ilin əvvəlində 49,4%, ötən ilin analoji dövründə 44,11% olub.

17 hektar ərazidə "Bazar Store" tikilir

"Azərsun Holding" Gəncədə nəhəng bazar tikir. Bazar "Bazar Store" adı ilə fəaliyyət göstərəcək. Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev bildirilib ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal etdikləri məhsulların satışı üçün hər bir şəraiti olan, təxminən 17,0 hektar ərazidə inşası aparılan "Bazar Store" MMC-nin tikintisi sürətləndirilib. Bundan başqa, Cavad xan küçəsi, 34 ünvanda, hər biri yeddimərtəbəli olan, uyğun olaraq "Majestik Palace" və Hacıkənd qəsəbəsində "ARFA" mehmanxanaların inşası davam etdirilir.

Müstəqil dövlətin
vətəndaşları olan
Azərbaycan xalqına
ən xoş arzularımızı yetiririk.

Konstitusiya və Dirçəliş gününüz
mübarək olsun!

"Azəraqrartikinti" Səhmdar Cəmiyyəti

AQRARKREDİT

"Aqrarkredit" QSC Bank olmayan Kredit Təşkilatı

Azadlıq və müstəqillik Azərbaycan xalqının müqəddəs arzusu olub. Respublikamız 25 ildir ki, müstəqil dövlətdir. Öz gerbimiz, öz bayrağımız, öz himnimiz, öz Konstitusiyamız var. Konstitusiya günü münasibətilə təbrik edirik!

Azərbaycan Kooperasiya Universitetinin müəllim və tələbə heyəti

Azərbaycan xalqını
Konstitusiya günü və
Milli Dirçəliş günü münasibətilə
təbrik edir, xalqımıza işıqlı yol,
xoşbəxt günlər arzu edir.

Bayramınız mübarək!

Методологические основы совершенствования управления коммерческих банков

(Продолжение.)

Если отчеты имеет серьезные ошибки, под видом риска, Аудитор должен указать мнение о неадекватности того факта. В целях снижения рисков до минимума соответственно, аудиторы должны разработать процедуры.

Аудиторский риск состоит из трех компонентов:

В деятельности банка вначале оцениваются риски, которые неточно отображены в бухгалтерской документации, далее определяются риски учета внутреннего контроля, как неспособность предотвратить ошибки. В итоге, фиксируется ошибка бухгалтерского учета, обнаруживший ревизор, заключение аудитора, сумма и рейтинг риска.

Финансовой и управленческой информации о достоверности, точности и полноты контрольных процедур считаются главным условием, с помощью этихвозможность позволяется возможность устранения следующих ошибок:

1) операции отображенные в учете, на самом деле были реализованы;

2) не отображенные операции в учете

3) операции не отражены в соответствующем периоде;

4) неправильно классифицированы операции;

5) отчеты по операциям неправильно классифицированы в группах

6) в учете используется неточные итоги.

Аудиторы оценивают в очень ограниченной форме управления Банка, и анализируют качества системы внутреннего контроля. Это помогает определить количество риска, суть плана помогает планировать аудиторские процедуры. Внутренний контроль и внутренний аудит играют особую роль в финансовых учреждениях и кредитных организациях.

Цели внутреннего контроля включают в себя:

- Обеспечение эффективности банковской деятельности;

- Банком соблюдать требования законодательных и регулирующих органов, а также ожиданием внутренней политики и стратегии;

- Обеспечение реализации сделок лицами, уполномоченными от имени банка;

- Обеспечение защиты контроля активов и пассивов;

- Точность финансовой и управленческой информации, чтобы обеспечить точность и полноту.

Система внутреннего контроля объединяет в себе следующие элементы:

- Контроль и управление среда контроля;

- Выявление и оценка рисков;

- Процедуры контроля;

- Обмен информацией;

- Мониторинг и исправление ошибок;

Несмотря на всю важность и необходимость поддержания системы внутреннего контроля, эта система по-прежнему продолжает оставаться как слабое звено банка.

Эффективная система внутреннего контроля является важным компонентом руководства банка. Внутренний контроль а также принимать участие в совете директоров банка.

Современный анализ практики, недостатки внутреннего контроля обеспечивает классификацию пять групп:

-Неадекватность государственного надзора и контроля окружающей среды в формировании банка;

- Были найдены в риске отдельных банковских операций, оперативной оценки;

-Разделение обязанностей, права доступа, обобщения и анализа данных о ключевых контрольных процедур, таких как отсутствие какой-либо обратной связи;

-Адекватность процедур обмена информацией между различными уровнями управления в отсутствие более высокого уровня;

-Недостаточность внутреннего аудита и контроля деятельности.

Хотя многие аспекты внутреннего аудита достаточно изучены, пока существуют научные исследования в этой области, что требует ряда методологических и организационные проблемы. Они заключаются в следующем:

- Нормативные документы и научной литературе не четко определить цели внутреннего аудита.

- Во многих случаях проверка внутреннего аудит определила, что полнота операций в бухгалтерской обработки своих задач заканчивается утверждением точности.

Особое внимание уделяется измерению операционного риска, расследования Бизнес процессов:

- Принципы внутреннего аудита должны быть сформулированы;

- Плохо разработана методика внутреннего аудита;

- Классифицирует виды внутреннего аудита;

- Опыт внутреннего аудита

- не определенструктура подразделения внутреннего аудита;

- Банки имеют обширную сеть филиалов, не полностью изучены особенности внутреннего аудита;

- Для того, чтобы избежать параллелизма, должно быть организовано взаимодействие внутреннего и внешнего аудита.

С этой целью может быть достигнута создание и надлежащее функционирование комитета по аудиту банка; В областях формирования внутренней ревизии большинство банков сталкиваются с объективными трудностями. По нашему мнению, внутренний аудит т.е.только аутсорсинг позволит решить эту проблему. Ряд банков в системе внутреннего контроля применяет метод самооценки. Суть этого метода заключается в том, что банк или любой из управления аппарата анализирует их деятельности, оценивает эффективность контрольных процедур, и за фиксируют результаты. Конечно, этот метод оценки также полезен, но этот метод имеет существенные ограничения, которые могут быть рассмотрены иначе.

(Продолжение следует)

Айхан Айвазлы ,
Магистр Азербайджанского Государственного Экономического Университета

В мире

Мирный атом: 8 стран с самыми опасными АЭС

Китай приступил к строительству своей первой плавучей атомной электростанции (АЭС), пишет газета "Жэньминь жибао" со ссылкой на местные СМИ.

По данным газеты Daily Economic News, строительство первой китайской плавучей АЭС ведет компания China General Nuclear Power Corp. (CGN).

По словам заместителя главного инженера научно-исследовательского центра CGN Жуй Миня, в новой АЭС будет установлен реактор ACPR50S.

При этом о месте, где будет располагаться плавучая АЭС, не сообщается.

В конце апреля глава Китайской национальной ядерной корпорации (China National Nuclear Corporation, CNNC) Сунь Цинь сообщил, что КНР к концу 2016 г. начнет строительство первой плавучей АЭС.

По его словам, АЭС будет введена в эксплуатацию в 2019 г. На строительство одной такой АЭС требуется около $461 млн.

Отмечалось, что строительство первой плавучей АЭС будет завершено в 2018 г. Она, вероятно, будет расположена в Южно-Китайском море.

Ранее сообщалось, что Китай может построить до 20 плавучих атомных электростанций.

В настоящее время в Китае функционируют 30 энергоблоков общей мощностью 28 ГВт, еще 24 энергоблока находятся на стадии строительства.

В настоящее время атомная энергетика считается небезопасной, так как после уничтожения ядерного реактора на Фукусиме в результате цунами в 2011 г. многие страны переосмыслили ее перспективы.

Цунами вызвало сильное землетрясение, в результате которого погибло почти 16 тыс. человек. Но вскоре стало ясно, что последствиями стихийного бедствия стали проблемы с охлаждением реакторов.

Топливный кризис и утечка радиации привели к цепи событий, которые в конечном итоге привели к полной остановке всех реакторов в Японии. Германия, которая является основным потребителем атомной энергии, закрыла 8 из 17 реакторов сразу после событий на Фукусиме.

Другие европейские страны также отложили реализацию своих ядерных программ.

Ниже представляем рейтинг самых опасных атомных электростанций.

1. Китай

В Китае, по данным на сентябрь 2016 г., 36 действующих промышленных ядерных реакторов, размещенных на 14 АЭС, суммарной мощностью 31,4 ГВт. Также 20 блоков находится в стадии строительства и 31 запланирован.

Активное развитие атомной энергетики является частью мер, предпринимаемых правительством для исправления экологической ситуации, вызванной массовым использованием угольных электростанций для обеспечения энергией бурно растущей экономики.

Наряду с ветряной и солнечной энергетикой, а также модернизацией угольных электростанций, атомная энергетика призвана исправить проблему с качеством воздуха в промышленных районах Китая.

Наиболее активные зоны землетрясений в Китае далеки от действующих АЭС на восточном побережье. Тем не менее высокую сейсмическую активность на восточном побережье не стоит сбрасывать со счетов.

Если говорить о строительстве новых АЭС, то работы ведутся на спорных территориях в Южно-Китайском море. А это несет определенные риски.

Китай не первый год пытается закрепить свои претензии на территории в Южно-Китайском море. Спутниковые изображения доказывают, что Китай ведет серьезную операцию по расширению своих территорий на островах Спратли в Южно-Китайском море.

Острова Спратли и Парасельские острова – это регион, вокруг которого не стихают споры в течение многих столетий.

В конфликте в разное время принимали участие Бруней, Китай, Индонезия, Малайзия, Филиппины, Тайвань и Вьетнам.

2. Тайвань

В настоящее время правительство Тайваня находится под растущим давлением со стороны общественности из-за эксплуатации своих непопулярных ядерных объектов, усилившимся с 2011 г. после катастрофы в Японии на АЭС "Фукусима".

Так же как и в Японии, в Тайване регулярно происходят землетрясения. В сентябре 1999 г. в результате 7,6-бального землетрясения погибло около 2400 человек.

В 2014 г. власти были вынуждены отложить на неопределенное время пуск практически построенной новой АЭС "Лунмэнь" с двумя энергоблоками по 1350 МВт после проведенного референдума на острове, в результате которого население страны высказалось против этого.

Правительство Тайваня говорит, что острову будет трудно отказаться от использования атомной энергии, так как на трех действующих АЭС в стране общей мощностью порядка 5 ГВт производится около 20% всей потребляемой электроэнергии.

3. Япония

До катастрофы на Фукусиме Япония располагала 54 действующими атомными реакторами (третье место в мире после Франции и США и первое в Азии).

АЭС Японии вырабатывали около 30% электроэнергии страны. В декабре 2013 г. официально было принято решение о закрытии всех 6 блоков "Фукусима-1".

Правительство премьер-министра Синдзо Абэ предприняло множество шагов для возобновления работы АЭС Японии. Подготовка к пуску энергоблоков сталкивается с серьезной оппозицией и сопровождается разбирательствами в судах.

1 августа 2015 г. в Японии впервые с 2013 г. был запущен атомный реактор — энергоблок 1 АЭС "Сэндай".

15 октября заработал второй реактор АЭС "Сэндай".

29 января 2016 г. компания Kansai Electric Power запустила третий реактор на АЭС "Такахама", после того как суд принял решение в пользу компании.

Неудачно закончилась попытка подключить к сети 29 февраля реактор "Такахама-4", и он был снова остановлен.

9 марта окружной суд Оцу выпустил распоряжение об остановке реакторов Такахама. После чего "Такахама-3" был вновь остановлен.

25 марта 2016 г. компания Shikoku Electric Power объявила о решении вывести из эксплуатации первый реактор АЭС "Иката".

Компания объяснила решение экономическими соображениями, по которым модернизация энергоблока не окупится за оставшийся эксплуатационный срок.

4. Южная Корея

Суммарная электрическая мощность атомных электростанций в Южной Корее составляет 23,1 ГВт от 25 реакторов, по данным на апрель 2016 г.

Вклад атомной энергетики в общее производство электричества составил 31,7% за 2015 г.

Планируется дальнейшее развитие ядерной энергетики, чтобы идти в ногу с растущим спросом на электроэнергию и увеличить долю атомной энергетики в общей генерации до 56% к 2021 г.



В настоящее время ведется строительство трех реакторов суммарной мощностью 4,2 ГВт.

Несмотря на фукусимскую ядерную аварию в марте 2011, Южная Корея остается убежденным сторонником ядерной энергетики.

В октябре 2011 г. Южная Корея подтвердила эту свою позицию, проведя на своей территории ряд международных и национальных мероприятий по повышению осведомленности общественности.

Кроме того, после Фукусимы корейское правительство приняло меры для повышения ядерной безопасности, в том числе строительство 10-метрового барьера для одного реактора, защиту гидроизоляционных насосов, строительство специальных защитных дверей и т. п.

Но, несмотря на эти меры, пять реакторов определены как находящиеся в потенциальной опасности.

5. США

Важно отметить, что реакция властей США на аварии на японских АЭС была весьма сдержанной. Но были пересмотрены условия безопасности.

В стране действуют около 100 реакторов, и еще 5 находятся в стадии строительства.

Комиссия по атомной энергетике США еще в 2011 г. составила рейтинг реакторов, где риск ущерба от землетрясений наиболее высок.

Многие сейсмологи считают, что зона Cascadia является потенциальным местом для землетрясений, которые будут похожи на те, которые недавно произошли в Японии и Чили.

Это ставит США на одну из высоких ступеней риска, тем более что Америка является крупнейшим в мире производителем атомной энергии. Удивительно, но электростанция Diablo Canyon, расположенная между побережьем Калифорнии и Сан-Андреасом, не считается подверженной угрозе цунами.

Так произошло потому, что эта АЭС была построена с возможностью выдержать сильное землетрясение.

Самая опасная АЭС – это Indian Point Energy Center, находящаяся в 24 километрах от Нью-Йорка. Вторую и третью позиции занимают АЭС в штатах Массачусетс и Пенсильвания.

6. Пакистан

Ядерная программа Пакистана не такая обширная, как в других странах. Тем не менее есть планы по расширению использования атомной энергетики.

В 2013 г. на юго-западе страны произошло землетрясение магнитудой 7,7 баллов, и тогда погибло не менее 328 человек.

При этом только один реактор в стране подвергается угрозе цунами.

Планы правительства Пакистана по строительству новых АЭС встречают все более растущую критику со стороны "антиядерного лобби" страны, которое заметно активизировалось после катастрофы на АЭС "Фукусима" в Японии в марте 2011 г.

7. Индия

Атомная энергетика вырабатывает 3,5% электроэнергии в Индии.

По состоянию на сентябрь 2016 г. Индия имеет 22 действующих промышленных ядерных реактора суммарной мощностью 6,2 ГВт.

В стране строится 5 новых реакторов общей мощностью около 3,2 ГВт.

Россия строит в Индии АЭС "Куданкулам", атомную станцию с четырьмя энергоблоками с реакторами ВВЭР-1000.

По состоянию на сентябрь 2016 г. первый реактор сдан в промышленную эксплуатацию, а второй впервые подключен к сети.

Подписан договор на строительство еще двух реакторов второй очереди.

При этом три АЭС расположены на побережье, а землетрясения в стране происходят весьма часто. В 2001 г. по стране ударило землетрясение, мощность которого составила 7,7 баллов, и тогда погибло более 20 тыс. человек.

Еще 8 лет спустя много людей пострадало из-за сильного землетрясения в Махараштре.

8. Иран

15 июля 2015 г. Иран и страны "шестерки" (США, Франция, Великобритания, Германия, Китай и Россия) достигли соглашения по иранской ядерной программе в обмен на отмену санкций против Ирана.

По соглашению Иран должен допустить инспекторов МАГАТЭ на свои ядерные объекты, страны Запада в свою очередь будут пошагово снимать с Ирана санкции.

Россия помогла Ирану закончить строительство АЭС в Бушере. Первый блок АЭС "Бушер" был подключен к национальной энергосистеме Ирана в сентябре 2011 г., в 2013 г. был передан в гарантийную эксплуатацию, в августе 2015 г. был подписан протокол окончательной его приемки.

Весной 2016 г. иранский заказчик получил лицензию на его промышленную эксплуатацию, и первый блок АЭС "Бушер" был окончательно передан в пользование Тегерану.

После трагедии на Фукусиме бывший президент Махмуд Ахмадинежад сказал, что АЭС в Бушере безопасна, так как является современным объектом по сравнению с 40-летним комплексом на Фукусиме.

Но в 2013 г. в районе Бушера произошло сразу два землетрясения, одно силой в 5,6 балла, другое – в 6 баллов. И в обоих случаях АЭС не пострадала.

BİRBAŞA POÇT REKLAMI

Birbaşa poçt reklamı (direct mail) reklam xəbərlərinin müəyyən qrup istehlakçı şəxslərin və ya mümkün işgüzar tərəfdaşların ünvanına göndərilməsidir.

Birbaşa poçt reklamına müxtəlif lüğətlərdə müxtəlif təriflər verilir. Onların bəziləri ilə tanış olaq.

Birbaşa poçt reklamı birbaşa poçt göndərişlərindən, məktublardan, prospektlərdən, kataloqlardan, dəvətnamələrdən və s.-dən ibarət reklamdır. Ünvanlı şəxslərin xüsusi seçilməsi zamanı belə reklam daha təsirlidir.

Birbaşa poçt reklamı bilavasitə xüsusi seçilmiş şəxs üçün nəzərdə tutulmuş reklamdır. Onun fərqləndirici cəhətləri auditoriyaya münasibətdə seçmə qabiliyyəti və ərazi əhatəsinə görə çeviklikdir. Birbaşa poçt reklamının səmərəli istifadəsinin qarantı ünvanların əsaslı tərtib edilmiş siyahısıdır. Birbaşa poçt reklamının ən geniş yayılmış növlərinə aiddir: məktublar, prospektlər, kataloqlar, dəvətnamələr, çap suvenirləri, sifariş blankları və s.

Birbaşa poçt reklamı firma ilə və ya onun məhsulları ilə əməkdaşlıqda potensial maraqlı olan istehlakçılara bilavasitə poçtla göndərilən reklamdır.

Poçt reklamı (direct mail) poçt xidmətinin reklamın bütün formaları üçün istifadə olunan terminidir; reklamın ən çox yayılan formasıdır.

Birbaşa poçt reklamı (BPR) və ya "direct mail" auditoriyanın ən yüksək sosial-iqtisadi və ərazi seçimini təmin edən reklam normalarından biridir. Sosial-iqtisadi seçim müəyən sosial-iqtisadi və ya peşə statusuna malik olan şəxslərin, məsələn, əlverişli idarəetmə qərarları qəbul edən firma nümayəndələrinin – şirkətin prezidentinin, kommersiya direktorlarının, menecerlərin və s. göndəriş ünvanları qismində seçim deməkdir. BPR-in ərazi seçimi tələb edir ki, bizim üçün əlverişli olan ərazilərdə, məsələn, rəqiblərimizin işləmədiyi yerlərdə yerləşən ünvanlı şəxsləri necə seçək. BPR nisbətən kiçik qrup istehlakçılar üçün əmtəə və xidmətlərin təşkili zamanı daha səmərəlidir.

Birbaşa poçt reklamının bir sıra üstünlükləri və çatışmazlıqları mövcuddur.

BPR-in üstünlüklərinə aiddir:

* BPR reklamın hər hansı digər formasına nisbətən hər min nəfərə düşən alıcıları tərəfindən ən yüksək reaksiyaya malikdir;
* Vasitəçilərin praktiki olaraq yoxluğu, potensial alıcıya çıxış üçün birbaşa yol;
* Reklamın məqsədli auditoriyaya "istiqamətlənməsinə" və "məqsədə nail olma" dəqiqliyinə nəzarət imkanı;
* BPR sistemində qəbul edilən fərdi müraciət, bir qayda olaraq, reklamın digər formaları ilə rəqabət aparmır və xeyli sosial-psixoloji uduş verir;
* BPR reklamın digər formalarına xas olan məhdudiyyətlərlə (göndərilən informasiyanın formatı, həcmi və xarakteri, ünvanlı şəxsin uzaqda yerləşməsi və s.) əlaqədar deyil – bu adi məktublar, iri formatlı səlis paketlər, çoxsəhifəli broşürlər və hətta özündə bir sıra predmetləri əks etdirən banderollar ola bilər;
* BPR-dən istifadə etməklə kompensasiyanın təşkili və aparılması marketinq strategiyasına və reklam vericinin taktikasına (aparılma müddəti, xərclər, nəticələrin alınması) uyğun olaraq kifayət qədər dəqiq hesablana bilər;
* kupon sistemindən (telefonların sifariş edilməsi sistemindən) istifadə edilməsi BPR-in səmərəliliyinin hesablanmasını xeyli sadələşdirir;
* BPR ünvanlı şəxslərin reaksiyasının xarakterinin dəqiq nəzərə alınmasına və deməli, reklam vericinin hərəkətlərinin operativ təshih (düzəliş) edilməsinə imkan verir.

BPR-in çatışmazlıqlarına aiddir:

* Kiçik biznes müəssisələri üçün BPR-in aparılmasında maliyyə çətinlikləri;
* Ünvanlı şəxsin poçtunda göndərişlərin bolluğu qıcıqlandıra bilər və makulatura (tullantı) effekti yaradar;
* BPR-in təşkilində və birinci növbədə, bütün kampaniyanı heçə endirən göndəriş siyahılarının formalaşmasında səliqəsizlik və diqqətsizlik;
* Potensial reklam alıcılarının ünvan koordinatlarının sürətlə və daimi dəyişməsi.

BPR-in aparılmasının xeyli maliyyə çətinlikləri şəraitində bir sıra reklamverici təşkilatların kooperasiyalaşmış yığımı və onları özünəməxsus məcmuələrə və qəzet nəşrlərinə keçirilməsi əsasında kollektiv göndərilməsi təcrübəsi iqtisadi cəhətdən özünü doğruldur və praktikadan keçir. BPR-in klassik formasından başqa birbaşa reklamın digər müxtəlif formaları - teleks və faks üzrə reklamın kütləvi göndərilməsi, audio və video materialların, kompüter disklərinin, disketlərinin poçtla göndərilməsi, xəbərlərin poçt qutularına kütləvi surətdə "atılması", onların küçələrdə, mağazalarda, marketlərdə və s. paylanması inkişaf edir.

Birbaşa poçt reklamının böyük miqdarda potensial iştirakçıların məqsədyönlü əhatə edilməsini təmin edən fövqəladə dərəcədə səmərəli vasitə olması ilə əlaqədar o, müxtəlif ölkələrdə çox geniş yayılmışdır. Son illərə qədər reklamın bu növü Azərbaycanda nisbətən az istifadə olunurdu.

Birbaşa poçt reklamı xüsusi hazırlanmış informasiya reklam məktublarının göndərilməsi və ya çap reklam materiallarının (bəzən nümunəvi müşayiət məktubu ilə) məqsədli göndərilməsidir.

(davamı gələn sayımızda)

F.M.Qarayev,
BDU-nun dosenti

E L A N

"Azərqarant Sığorta" ASC səhmdarın qərarı ilə öz fəaliyyətinə xitam verdiyinə görə kreditorların nəzərinə çatdırılır ki, öz tələbləri ilə 2 (iki) ay müddətində Nəsimi rayonu, 28 may küçəsi 72 ünvanına müraciət edə bilərlər.
Tel. (012) 493-81-02

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

VİDA SÖZÜ

Azərbaycan iqtisad elminə itki üz vermişdir. Azərbaycan Dövlət Aqrar Universitetinin Mühasibat uçotu və audit kafedrasının müdiri, professor, FD. 04. 013 birləşdirilmiş dissertasiya şurasının elmi seminarının üzvü, Məmməd Həbib oğlu İsmayılov 2016-cı il noyabr ayının 8-də ömrünün 64-cü ilində vəfat etmişdir. İsmayılov Məmməd Həbib oğlu 1952-ci ildə Şəmkir rayonunun Alabaşı kəndində anadan olmuşdur. 1975-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili fakültəsini bitirmişdir. 1985-ci ildən ömrünü Azərbaycan Dövlət Aqrar Universitetinə bağlamış, sıravi assistent vəzifəsindən kafedra müdiri vəzifəsinədək ucalmışdır.

Məmməd İsmayılov Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən FD. 04. 013 birləşdirilmiş dissertasiya şurasının elmi seminarının üzvü kimi əzmkar fəaliyyəti ilə gənc alimlərin formalaşmasında xüsusi rol oynamışdır.

Gözəl və qayğıkeş insan, Məmməd İsmayılovun əziz xatirəsi Azərbaycan ziyalılarının qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədova bacısı
XANIMZƏR ƏKBƏR QIZININ
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədova bacısı
XANIMZƏR ƏKBƏR QIZININ
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"İqtisadiyyat" qəzetinin kollektivi "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədova bacısı
XANIMZƏR ƏKBƏR QIZININ
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, **"Azərmedia" MMC** mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 **İndeks: 0355 Tiraj: 3150**